www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 fevral 2015-ci il Çərşənbə № 37 (6065) Qiyməti 40 qəpik

**Xəbər**

## Bibiheybət sakini nişanlısının 24 yaşlı qardaşını öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Bakıda "yaşıl pul" ajiotajı: banklar qapılarını bağladı



Ekspertlər baş bankirin açıqlamasını tələskənlik adlandırır, paytaxtda dollar satışı dayandırılıb, ərzaq məhsullarının isə bahalaşması gözlənilir

yazısı səh.12-də

### Müsavat iqtidar-müxalifət görüşünə qatılacaq

yazısı səh.6-da

### Minsk razılaşması fiaskoya uğradı

yazısı səh.2-də

### Aslanovun bir ailənin 12 üzvünü həbs etdirməsinin müdhiş təfərrüatları...

yazısı səh.10-da

### Ermənistanda müxalifətçilərin kütləvi həbsi başladı

yazısı səh.8-də

### Kürdəxanı təcridxanasının əməkdaşları "Lamiyə olayı"na görə həbs olunub?

yazısı səh.13-də

### Səudiyyə imamının iddiasına Bakıdan ilginc reaksiyalar

yazısı səh.15-də

### Qubad İbadoğlu təşkilatının təsis konfransına hazırlaşır

yazısı səh.7-də

### Biznesmenlər də Naxçıvanı tərk edir

yazısı səh.7-də

### Qarabağ üçün "Normand formatı" - Minsk üçlüyü, üstəgəl...

yazısı səh.8-də

**İqtidar daxilində deputatlıq müzakirələri qızışır**

# YAP MƏMUR ÖVLADLARININ MANDATINA QARŞI

Hakim partiyada deputat siyahısı bəzilərində təlaş yaradıb və nazir "dayılarının" qəbulunda növbəyə dayanıblar; "heç bir xidməti olmayan" oliqarx övladlarının parlamentdə təmsilçiliyinə Prezident Administrasiyasında da isti baxmırlar; ən çox hansı seçki dairəsi uğrunda mübarizə gedir?

yazısı səh.5-də



## "Azərbaycanda inqilabdan söhbət gedə bilməz"

Dövlət katibinin müavini Viktoriya Nuland Bakı səfərində mühüm bəyanatlar verdi; ABŞ-la Azərbaycan arasında ikitərəfli strukturun yaradılması barədə razılıq əldə olundu

yazısı səh.9-da



### Cavid Qurbanovun nazirin adamlarını işdən qovması xəbəri yayıldı

yazısı səh.4-də



### Ərdoğanın oğlu Mübariz Mənsimovun gəmisini aldı

yazısı səh.12-də



### İntiqam Əliyev məhkəmə heyətinə etiraz etdi

yazısı səh.3-də

## UEFA-dan "Qarabağ"a rədd cavabı



**UEFA-da "Qarabağ"ın Avropa Liqasının qrup mərhələsinin son turunda "İnter"lə keçirilən oyunla (0:0) bağlı apelyasiya şikayətinə baxılıb.**

Qol.az-ın məlumatına görə, qitənin ali futbol qurumu Ağdam təmsilçisinin şikayətini rədd edib.

Lakin klubun vəkili Qürur Qaye Ünal Miroslav Zelinkanın başçılıq etdiyi hakimlər briqadasının cəzalandırıla biləcəyini deyib:

"Apelyasiya Komitəsindən verilən açıqlamada Riçard Almeydanın qolunun hakimlər tərəfindən qeydə alınmamasının yanlış qərar olduğu bildirildi. Həmçinin qeyd olundu ki, UEFA həmin görüşün hakimlərini cəzalandıra bilər. Ancaq oyun yenidən keçirilməyəcək".

Xatırladaq ki, "Qarabağ" - "İnter" matçının əsas vaxtına əlavə olunmuş dəqiqələrdə Riçard Almeyda rəqib qapısına yol tapsa da, matçın baş hakimi Miroslav Zelinka bu qolu ofsayd kimi qiymətləndirərək qeydə almayıb. Nəticədə Ağdam təmsilçisinin yer aldığı F qrupundan növbəti mərhələyə qrup birincisi kimi "İnter", qrup ikincisi kimi "Dnepr" klubları adlayıb.

## Ukrayna müharibəsində "Allahu-Əkbər" şüarları

**"Donetsk Xalq Respublikası"nın Debaltsovodakı tərəfdarları olan separatçılar milis bölməsini və dəmiryol vağzalını ələ keçirib.**

Virtualaz.org saytı xəbər verir ki, bu məlumatı öz facebook səhifəsində hərbi jurnalist Andrey Tsaplienko yazıb.

"15 dəqiqə bundan qabaq "Rus dünyası" bölməsinin döyüşçüləri "Allahu-Əkbər" qışqıraraq yerli milis bölməsini ələ keçirdi. Bundan bir saat əvvəl isə dəmiryol vağzalını tutmuşdular" - deyə jurnalist bildirir.

Separatçılar da öz növbələrində bildiriblər ki, onlar hazırda şəhərin çox hissəsinə nəzarət edirlər, lakin küçə döyüşləri hələ də davam edir. Onların sözlərinə görə, Debaltsovonun "təmizlənməsi" əməliyyatına "Donetsk Xalq Respublikası"nın rəhbəri Aleksandr Zaxarçenko şəxsən özü rəhbərlik edir.

## Azərbaycanda 170,5 min körpə doğulub, 55,6 min nəfər ölüb

**Azərbaycanda son illər ərzində doğum səviyyəsi yüksək olaraq qalıb. Dövlət Statistika Komitəsindən APA-ya verilən xəbərə görə, 2014-cü ildə 170,5 min körpə doğulub və əhalinin hər 1000 nəfərinə hesabı ilə doğulanların sayı 18,1 təşkil edib. Doğulanların 53,6 faizi oğlan, 46,4 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrin 3148-i əkiz, 60-ı isə üçəm doğulub. 2014-cü ildə ölkədə 55,6 min ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə hesabı ilə ölənlərin sayı 5,9 təşkil edib.**

Ölüm səviyyəsi gözlənilən ömür uzunluğu göstəricisinə də öz təsirini göstərir. 2014-cü ildə bu göstərici 74,2 yaş, o cümlədən kişilər üçün 71,6, qadınlar üçün 76,8 yaş olub. Hazırda ölkə üzrə əhalinin təkrar istehsalı təmin olunaraq, uşaq doğmaq qabiliyyətinə malik olan hər bir qadına bütün ömrü boyu orta hesabla 2,2 uşaq düşür.

Ölənlərin ümumi sayına nisbətən ötən il qan dövranı sisteminin xəstəliklərindən ölənlər 60,1 faiz, yenitörəmələrdən 12,6 faiz, həzm sisteminin xəstəliklərindən 5,2 faiz, travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən 4,9 faiz, tənəffüs orqanlarının xəstəliklərindən 3,6 faiz, infeksion və parazitar xəstəliklərdən 0,9 faiz, digər səbəblərdən isə 12,7 faiz təşkil edib.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Redaktorlardan ilginc seçki proqnozu

**Seçki ili mətbuat üçün hər zaman bol reklamlı və gəlirli dönəm sayılıb. Namizədlərin reklamı, mövzu rəngarəngliyinin nəticəsi olan oxucu marağı, tirajın yüksəlməsi və sair... Bu il də parlament seçkiləri ilidir və mətbuat üçün üfüqdə müsbət bir şeylərin olacağı ehtimal edilir. Bəs redaktorlar durumla bağlı optimistdirlərmi? Təmsil etdikləri media orqanı adına seçkidən nələr gözləyirlər?**



**Azər Ayxan:**
"Reklam gəlirləri gözləmək sadəlövhlük olardı"



**Sücəddin Şərifov:**
"Seçkidə reklama yox, daha çox qəzet satmağa bel bağlayırıq"

**"Yeni Müsavat" qəzeti baş redaktorunun birinci müavini Azər Ayxan bildirdi ki, əvvəlki illərə nisbətən seçki ilində tirajın ciddi şəkildə artmasını gözləmir. Onun sözlərinə görə, bunun obyektiv və subyektiv səbəbləri var:** "Əvvəllər qəzetlərin yayımı bilavasitə qəzetlərin öz nəzarətində idi. Son illər isə yayım sektoruna hakimiyyətin çox ciddi müdaxiləsi nəticəsində bu məsələ redaksiyaların nəzarətindən çıxıb. Ondan əlavə, seçkiyə maraq da cəmiyyət tərəfindən ciddi şəkildə azalıb. Cəmiyyətin siyasətlə maraqlanan kəsimi seçki kampaniyasına qoşulmur, prosesləri kənardan da olsa izləmir. Çünki bilir ki, seçkidə böyük saxtakarlıq olacaq. Bunu deputatlığa namizədliyini verən istənilən adam bilir. Ona görə də media üzərindən piar işləri həyata keçirməyə o qədər də maraqlı görünmürlər. Əksəriyyətinə seçkinin nəticəsi və deputat olub-olmayacağı bəlli olduğu üçün izafi məsrəfdən yayınırlar. Son nəticədə isə mətbuatla işləməkdən yan qaçırlar".

**A.Ayxan hesab edir ki, bu səbəbdən də seçki ilində reklam gəlirləri gözləmək sadəlövhlük olardı:** "Amma siyasi proseslər bir qədər fərqli şəkildə getsə, mətbuatın maddi uduşu mümkündür".

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov da bu seçki ilə bağlı optimist əhvalda deyil. Onun fikrincə, ümumən aktiv ildir və media üçün mövzu problemi olmayacaq:** "Tirajın artmasına ümid etmək olar. Adətən seçki ilində cəmiyyətdə fəallıq da çox olur. Cəmiyyətin mətbuata laqeydliyinin əvəzinə, maraqlar artır. Maliyyə və neft sektorunda baş verənlər tiraj artımı, oxucu tapmaq baxımından bu ili ümidverici edir".

**S.Şərifov bildirdi ki, "Azadlıq" qəzeti reklam məsələsinə bütün seçkilərdə ehtiyatlı yanaşıb. Belə ki, bütün namizədlərə bərabər vəziyyət yaratmaq mümkün deyil:** "Çünki bu, tirajın itməsi, qəzetin nüfuzdan düşməsinə səbəb olur. Seçkidə reklama yox, çox qəzet satmağa bel bağlayırıq".

**Sevinc TELMANQIZI**



## Minsk razılaşması fiaskoya uğradı?

Poroşenko ilə Putinin mübahisə etdikləri barədə xəbər yayıldı

**"Separatçıların rəhbərləri və Rusiya prezidenti Vladimir Putin Debaltsevonun bazar gününə qədər ələ keçiriləcəyi ümidi ilə atəşkəsin fevralın 15-də imzalanmasını istəyirdilər".**

Lent.az-ın məlumatına görə, "Wall Street Jorunal" yazır ki, Putinin planı baş tutmadığından qeyd edilən ərazidə şiddətli döyüşlər hələ də davam edir. Məqalədə qeyd olunur ki, Debaltsevoda gedən döyüşlərə görə Ukrayna prezidenti Pyotr Poroşenko ilə Rusiya prezidenti Vladimir Putin arasında mübahisə ilə yekunlaşan telefon danışıqları olub.

"Minsk danışıqlarında Almaniya kansleri Angela Merkellə Fransa prezidenti Fransua Olland Debaltsevoda döyüşlərin dərhal dayanrılmasını tələb etsələr də, Putin fevralın 15-nə qədər möhlət istəmişdi. Poroşenko isə Rusiya prezidentinin bu istəyi ilə razılaşmaq məcburiyyətində qaldı" - "Wall Street Jornal"da bildirilir. Fevralın 15-də Putinin Olland və Merkellə baş tutan telefon danışıqlarında bölgədə baş verən gərginlik müzakirə edilib. Rusiya prezidenti deyib ki, Ukrayna qoşunları ərazini mühasirəyə alıblar və imzalanan sənədin əksinə gedirlər.

**Poroşenko buna sərt şəkildə etiraz edib. Bundan sonra "Normand dördlüyü" arasında telefon danışığı olub və qarşılıqlı ittihamlar burada da davam edib. Jurnal yazır:** "Putinin özündən razı şəkildə hadisə yerindən məlumatlı olması barədə dedikləri və Rusiya qoşunlarının Debaltsevoda olmasını inkar etməsi Poroşenkonu özündən çıxardıb.

O, Rusiya prezidentini riyakarlıqda ittiham edib".

## Külli miqdarda saxta araq tutuldu



**Abşeron rayon sakininin avtomaşınından 218 ədəd saxta spirtli içki götürülüb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş məlumat əsasında idarə əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Abşeron rayon sakini Səbuhi Məmmədov Novxanı qəsəbəsi ərazisində saxlanılıb. Onun idarə etdiyi "Mitsubishi" markalı avtomaşından "Banketnaya", "İzbuşka" və "Ambarnaya" markalı 218 ədəd spirtli içki götürülüb.**

Həmin spirtli içkilər Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə göndərilib və onların saxta olması müəyyən olunub.

Araşdırmalarla üzərinə saxta aksiz markaları vurulmuş həmin spirtli içkilərin Xırdalan şəhərində yaşayan Kəlbəcər rayon sakini Vidadi Cümşüdovdan alınması müəyyən edilib və həyata keçirilmiş tədbirlərlə sonuncu da saxlanılıb.

Faktla bağlı toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Baş İdarənin İstintaq Şöbəsinə göndərilib.

Faktla bağlı araşdırmalar davam etdirilir.

## Təzə rəis 3 işçisini də Sabunçuya gətirdi

**Sabunçu Rayon Polis İdarəsinə (RPİ) yeni təyinatlar olub. APA-nın məlumatına görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubovun imzaladığı müvafiq əmrlə Şəki Şəhər-Rayon Polis Şöbəsinin (ŞRPŞ) əməliyyat işləri üzrə rəis müavini Şaiq Əliyev tutduğu vəzifədən azad edilərək Sabunçu Rayon Polis İdarəsinin (RPİ) əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə təyinat alıb.**

Bundan başqa, Şəki ŞRPŞ-nin istintaq bölməsinin rəisi Çingiz Osmanov Sabunçu RPİ-nin istintaq şöbəsinin rəisi, Şəki ŞRPŞ-nin əməliyyatçısı Rəşad Rəcəbov isə Sabunçu RPİ-nin cinayət axtarış şöbəsinin rəisi vəzifələrinə təyin olunublar.

Qeyd edək ki, bir müddət əvvəl R. Usubovun əmri ilə Sabunçunun polis rəisi Cavanşir Babayev təqaüdə göndərilib. Onun yerinə Şəki RPŞ-nin rəisi Eldar İlyasov təyinat alıb.



## "Yeni Müsavat" 125-ləri təbrik etdi

**Bugünlərdə 125-lər Siyasi Klubunun yaradılmasından 1 il ötdü. Fevralın 17-də "Yeni Müsavat" qəzetinin baş redaktorunun 1-ci müavini Azər Ayxan və qəzetin direktoru Ələsgər Süleymanov 125-lərin ofisində olub, əlamətdar gün münasibətilə qəzet adından təbriklərini 125-lər Siyasi Klubunun sədri İlhamiyyə Rzaya çatdırıblar. Görüşdə həmçinin klubun İdarə Heyətinin üzvləri Günel Səfərova, Tamilla Qulami və Rüfət Muradlı da iştirak ediblər.**

Görüşə qatılan Ümid Partiyasının sədri, millət vəkili İqabal Ağazadə rəhbərlik etdiyi partiyanın, həmçinin üzvü olduğu 125-lər Siyasi Klubunun bu il keçiriləcək parlament seçkilərində iştirakı ilə bağlı planlardan danışıb.

Xatırladaq ki, 125-lər Siyasi Klubu 2014-cü ilin fevral ayının 14-də təsis olunub. Klubda xeyli tanınmış simalar - jurnalistlər, hüquqşünaslar, QHT təmsilçiləri, siyasətçilər, yazıçı və şairlər təmsil olunur.

**Xəbər Xidməti**

## İlk və axır çərşənbənin vaxtları məlum oldu

**Fevralın 24-də Azərbaycanda ilk çərşənbə, martın 17-də isə axır çərşənbə qeyd olunacaq.**

Bu barədə Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktoru Əyyub Quliyev məlumat verib.

Ə. Quliyev deyib ki, 2015-ci ildə Azərbaycan ərazisinə baharın gəlişi martın 21-də Bakı vaxtı ilə təxminən saat 02:45 radələrində baş verəcək: "Martın 20-də Güneş səmanın cənub yarımkürəsindən şimal yarımkürəsinə keçid edəcək. Həmin an Güneş Yerin hərəkət müstəvisi ilə Yerin ekvator müstəvisinin kəsişdiyi nöqtədə olacaq. Bu nöqtəyə astronomiyada "yaz bərabərliyi nöqtəsi" deyilir. Güneş həmin nöqtədə olanda gecə və gündüz bərabərliyi qeydə alınacaq. Həmin andan başlayaraq şimal yarımkürəsində astronomik bahar başlayır və bu, iyun ayının 21-nə qədər davam edir".

## Boşanmalar artır

**Azərbaycanda 2013-cü illə müqayisədə 2014-cü ildə nikahların sayı azalıb, boşanmaların sayı isə artıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ötən il Azərbaycanda 12,1 min nəfər boşanıb.**

2014-cü il ərzində Azərbaycanda rəsmi orqanlar tərəfindən 84,9 min nikah halı qeydə alınıb. Ötən il əhalinin hər 1000 nəfərinə hesabı ilə nikahların sayı 9, boşanmaların sayı isə 1,3 olub.

2013-cü il ərzində Azərbaycanda 86,9 min nikah, 11,7 min boşanma qeydə alınıb.

YENİ MÜSAVAT

N 37 (6065) 18 fevral 2015




**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

## Qaz vurmaq və qaz vurub, qazan doldurmaq

**Nifrət bəzən adamların gözünü elə örtür ki, ən kəskin reallığı belə başqa donda, mənfi çalarda görürlər. Bir dəfə ATV-nin səhərlər efirə gedən verilişində maraqlı bir süjet göstərdilər. ABŞ-da ovçular dəstə ilə uçan quşları ovlamaq üçün orijinal üsul fikirləşmişdilər. Onlar həmin quşların çoxlu maketlərini düzəldib düzənlikdə düzmüşdülər, özləri isə çox ustalıqla gizlənmişdilər. Göydə dəstə ilə uçan vəhşi quşlar öz həmcinslərinin düzənliyə qonduqlarını görüb uçuş istiqamətini dəyişib onlara sarı yön aldılar.**

Yerə enməyə az qalmış ovçular dalbadal atəş açmağa başladılar. Vurulmuş quşlar göydən tappatapla töküldülər. Süjeti şərh edən teleaparıcı Turan İbrahimov bunu Qərbin vəhşiliyi kimi xarakterizə etdi. Halbuki orada heç bir vəhşilik-zad yox idi. Ovçular ov etmək üçün qanuni icazə alıblar və icazəsini aldığı quşları da vurublar. Balam, ovçunun bacarığı ovuna gizli yaxınlaşmaq və sərrast atəş açmaqla ölçülmür məgər? Yoxsa bu ovçular əyinlərinə alqırmızı paltar geyinib, nağara çala-çala, fişəng ata-ata ayıq çöl quşlarını ovlamağa getməli idilər? Sadəcə olaraq, adam Qərbə nifrət edir, ona görə də onların hər bir addımını əcaib donda görür. Düzünə qalsa, öz işlərini yüksək peşəkarlıqla yerinə yetirmiş bu adamları tərifləmək lazım idi. İxtiraçı təfəkkürə görə!

Lamiyə Quliyevanın həbsxanada dünyaya uşaq gətirməsi məsələsi deputatxanada *(Zamin Hacı)* müzakirə olunub. Əslində nə baş verdiyi hamıya gün kimi aydındır. Cəmiyyət, sadəcə olaraq, detalları, yəni uşağın atasının hansı poqonlu olmasını bilmək istəyir. Deputat Zahid Orucun bu məsələyə münasibəti həmişə olduğu kimi çox orijinal olub. O deyib ki, Lamiyə Quliyevanın həbsxanada dünyaya uşaq gətirməsi və bu xəbərin yayılması niyə məhz siyasi məhbusların Kürdəxanı təcridxanasında çox olduğu vaxta təsadüf edir? Əsas problem budur, gərək beynəlxalq erməni mafiyasının yerli müxalifətçilərlə bu yöndəki işbirliyi üzə çıxarılsın və əsl həqiqət xalqa bildirilsin. Bir sözlə, Lamiyə Quliyevanın dünyaya uşaq gətirməsi satqın müxalifətin işidir. Əgər bu belə deyilsə, Leyla Yunus və Xədicə İsmayıl kimi erməni dəyirmanına su tökənlər niyə məhz bu ərəfədə özlərini Kürdəxanıya atıblar? Öz aramızdır, qərblilərin iti ağıllarına sadəlövhcəsinə həsəd aparırıq, amma özümüzün iti ağıllılarımıza qiymət vermirik. Məsələn, göydə uçan quşları aldadıb nişangaha gətirən həmin amerikalı ovçuların, Lamiyə Quliyevanın həbsxanada dünyaya uşaq gətirməsinə Zahid Oruc kimi orijinal fikir bildirməsinə ağılları çatardımı? Əlbəttə ki, yox, adam əsl ixtiraçı təfəkkürü ilə danışır. Göydə uçan qazları qazlamağa nə var ki! Qaz onsuz da qazdır da! Qoçaqsan milləti qaz yerinə qoy, görüm, bacararsanmı? Lazım gəlsə, (yəqin ki, gələcək) qazın qiymətini qaldırıb milləti daha yaxşı qazlamaq olar.

❑ **Tofiq YAQUBLU**

# İntiqam Əliyev məhkəmə heyətinə etiraz etdi

## Hüquq müdafiəçisinin məhkəməsi gərgin keçdi; Gülşən Orucovanın ifadəsində ziddiyyətli məqamlar ortaya çıxdı

**Fevralın 17-də Bakı Ağır Cinayətlər Məhkəməsində hüquq müdafiəçisi İntiqam Əliyevin işi üzrə növbəti məhkəmə prosesi keçirildi. Prosesdə ölkəmizin tanınmış simaları - MSDM-in rəhbəri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı və digər partiyaların liderləri, vətəndaş cəmiyyətinin, xarici ölkə təşkilatları və səfirliklərin nümayəndələri iştirak edirdilər.**

Məhkəmə salonu kiçik olduğundan prosesdə iştirak etmək istəyənlərin çoxu zala daxil ola bilmədilər.

Hakim Rasim Sadıqov məhkəməyə zərərçəkənlərin ifadələrindən başladı. Lakin İ.Əliyev etiraz edərək bildirdi ki, ittihamların mahiyyəti ona aydın deyil.

O, həmçinin iclasın kiçik zalda keçirilməsindən narazı qaldığını qeyd etdi. İ.Əliyev dedi ki, monitorinq aparan xarici səfirliklərin nümayəndələri prosesə qatıla bilməyiblər. Hakim bildirdi ki, heç kimin monitorinq aparmağa ixtiyarı yoxdur. O bunu məhkəmənin işinə müdaxilə kimi qiymətləndirdi. Bu fikirlər zaldakılarda gülüş doğurdu.

Hakim ittihamın təqsirləndirilən şəxsə aydın olmaması ilə bağlı vəsatəti təmin etdi və ittiham aktını oxudu.

Lakin İ.Əliyev ittihamın mahiyyəti barədə açıqlama verərək dedi ki, ona qarşı irəli sürülən qanunsuz sahibkarlıq ittihamı vergiödəyicisi kimi qeydiyyatsız fəaliyyətdən və ya xüsusi icazə tələb edən fəaliyyətdən ibarətdir.

İ.Əliyev qeyd etdi ki, Hüquqi Maarifləndirmə Cəmiyyəti kommersiya fəaliyyəti ilə məşğul olmayıb, hüquqşünaslar üçün treninqlər keçirib, vətəndaşların hüquqi müdafiəsini təmin edib ki, bundan ötrü lisenziya lazım deyil.

Buna cavab olaraq R.Sadıqov bildirdi ki, İ.Əliyev hüquqşünasdır və ittihamın mahiyyətini başa düşməlidir.

"Məsələ də bundadır ki, mən hüquqşünasam, ancaq ittihamlar aydın deyil" deyə, İ.Əliyev vurğuladı.

Hakimin İ.Əliyevin çıxışlarının qarşısını almaq cəhdlərindən sonra o, məhkəmə heyətinə etiraz etdi.

Hakim etirazı yazılı şəkildə tələb etdi. Bununla əlaqədar hakim fasilə elan etdi və iştirakçıların hamısının zaldan çıxarılması barədə göstəriş verdi.

20 dəqiqəlik fasilədən sonra İ.Əliyev məhkəmənin qərəzli olmasını əsas göstərərək məhkəmə heyətinə etirazını əsaslandırdı. Belə ki, məhkəmə prokurorla eyni fikirdə olaraq müdafiə tərəfinin bütün vəsatətlərini rədd edib, onun ofisindən götürülmüş sənədləri iş üzrə materialların arasından çıxarıb.

Əsasən bunlar mühasib Gülşən Orucova və onun bacısı Əfsanə Orucovanın bank hesablarıdır *(istintaqın məlumatına görə, G.Orucova bacısının hesabına 119 min manat köçürüb, guya bu pullar İ.Əliyevə verilib)*.

Lakin istintaq 77 ödəniş tapşırığından yalnız 29-nu yoxlayıb və onlardakı imzalar saxta olub. "Bu, açıq-aşkar saxtakarlıqdır və bu səbəbdən də istintaq ekspertizaya getməyib" deyə, İ.Əliyev qeyd etdi.

O, vətəndaş cəmiyyəti ilə haqq-hesab çəkmək üçün məhkəmənin siyasi xarakterli olduğunu bildirdi.

**Müdafiə tərəfinin ev dustaqlığı ilə bağlı vəsatətini hakim qəbul etmədi. İ.Əliyev buna etiraz etdi:** "Əvvəlki proseslərdə demişəm. Qısa bildirim ki, həbs olunacağımı bilə-bilə ölkəyə qayıtmışam. İndi ölkədən qaçacam? Yaxud hansı şahidə təzyiq edə bilərəm? Şahid kimi yazdığınız qızım Nərminə? Özünüzü gülünc vəziyyətə salmayın".

Bundan sonra proses saat 14:30-a kimi təxirə salındı.

Məhkəmə prosesi fasilədən sonra davam etdirildi. Müdafiə tərəfinin məhkəmə heyətinə etiraz etdikləri barədə vəsatətə baxıldı. Hakim buna heç bir əsasın olmadığını qeyd edərək, vəsatəti təmin etmədi.

**Prosesdə zərərçəkmiş qismində Gülşən Orucova ifadə verdi. O, istintaqda verdiyi ifadələri təsdiq etdiyini söylədi:** "İntiqam müəllimlə heç bir düşmənçiliyim yoxdur. İstintaqda verdiyim ifadələr doğrudur. Mən 119 min manatı qəpiyinə qədər İntiqam Əliyevə vermişəm. Onun öz xahişi ilə bacım Əfsanə Orucovanın adına bank hesabı açmışam. Bunun əvəzində ona maaş verilməli idi. Özüm mənə yazılan 242 manat maaşı almamışam".



Onun dedikləri istintaqdakı ifadəsi ilə ziddiyyət təşkil etdi.

Ardınca zərərçəkmiş yarım saata qədər prokurorun suallarını cavablandırdı.

Zərərçəkən müdafiə tərəfinin sualları qarşısında cavab tapa bilmədi. Gülşən Orucova əksər suallardan yayındı. Hər suala "xatırlamıram" cavabını verməsi vəkillərin ciddi etirazına səbəb oldu. İntiqam Əliyev söz demək istəsə də, hakim buna icazə vermədi. R.Sadıqovun müdafiə tərəfinin vəkili Şəhla Hümbətovanın "İntiqam Əliyevi başa salın" deməsi zalda etirazla qarşılandı.



**Müdafiə tərəfinin vəkili Elçin Sadıqov zərərçəkmişə belə sual verdi:** "Gülşən xanım, ittiham aktının bir yerində qeyd olunur ki, siz bankda olan 1230 manatın 470 manatını çıxarmısınız. Sonra isə göstərilir ki, bütünlüklə təhvil vermisiniz. Bankda olan pulu İntiqam bəyə necə təhvil verirsiz?" Zərərçəkmiş bu suala "bütün pulları İntiqam müəllimə vermişəm" dedi.



**İntiqam Əliyev ona qarşı verilən ifadəyə münasibət bildirdi:** "İnsan iyrənckliklər dövründə yaşayır. Bankdan hələ sənədlər alınmayıb. İmzalar bir daha bəyan edirəm ki, mənə məxsus deyil. O, tamam yalan, qərəzli danışır. Verdiyiniz hazır kağızı üzündən oxuyur".



Zərərçəkmişin ifadəsindən sonra yaranan ziddiyyətli məqamlardan biri də bu oldu ki, o, istintaq zamanı İ.Əliyevdən məhdud asılılığına görə bacısının adına hesab açdığını bildirib. Lakin məhkəmədəki ifadəsində isə bacısının adına əmək haqqı yazılacağına görə bu addımı atdığını qeyd etdi. Müdafiə tərəfinin vəkillərinin bu barədəki suallarına, o, "mən məhkəmədə belə deməmişəm"deyə, cavab verdi. Sonra məlum oldu ki, bu ifadəsində də ziddiyyət var. Hətta zərərçəkmiş bir neçə təşkilatda mühasib işlədiyini desə də, təşkilatların adını xatırlamadığını bildirdi. Onun ifadəsi zamanı məlum oldu, G.Orucova istintaqda Hüquq Maarifçiliyi Cəmiyyətində formal olaraq mühasib olduğunu bildirib. Məhkəmədə isə tamam əksini dedi.

Hakim zərərçəkmişin suallar qarşısındakı acizliyini görərək, İntiqam Əliyevin çıxışına məhəl qoymadan prosesin 3 mart saat 11:00-a təxirə salındığını elan etdi. Növbəti məhkəmə Gülşən Orucovanın verilən suallara cavab verməsi ilə davam edəcək.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Rəsmi işsiz statusu verilmiş şəxslərin sayı açıqlanıb

**Bu il fevralın 1-i vəziyyətinə Azərbaycanda iqtisadi fəal əhalinin sayı 4844,3 min nəfər olub, onlardan 4606,7 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil edib.**

“APA-Economics”in Dövlət Statistika Komitəsinə istinadən verdiyi məlumata görə, bu il yanvarın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1516,1 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət bölməsində 884,4 min nəfər, qeyri-dövlət bölməsində isə 631,7 min nəfər təşkil edib. İqtisadiyyatın neft sektorunda 35,9 min nəfər, qeyri-neft sektorunda isə 1480,2 min nəfər çalışıb. Muzdla işləyənlərin tərkibində qeyri-kənd təsərrüfatı sahəsində əmək fəaliyyəti ilə məşğul olanlar 1471,4 min nəfər təşkil edib.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,8%-i məhsul istehsalı sahələrində, onlardan 7,1%-i tikintidə, 6,7%-i emal sənayesində, 2,9%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 2,4%-i mədənçıxarma sənayesində, 2,0%-i elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, 1,7%-i su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində məşğul olublar.

Xidmət sahəsində çalışanların 22,2%-i təhsil, 18,8%-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,7%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6%-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,7%-i nəqliyyat və anbar təsərrüfatı, 3,8%-i istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 3,8%-i peşə, elmi və texniki fəaliyyət, 2,0%-i maliyyə və sığorta fəaliyyəti, 1,7%-i informasiya və rabitə, 1,6%-i inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,4%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1%-i digər sahələrdə xidmətlərin göstərilməsi və 0,8%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində cəmlənib.

2014-cü ilin yanvar-dekabr aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 154,4 saat təşkil edib.

Bu il fevralın 1-nə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 28,9 min nəfər olub, onların 39,4%-ni qadınlar təşkil edib. İşsizliyə görə müavinətin orta məbləği 266,9 manat olub.

# Cavid Qurbanovun nazirin adamlarını işdən qovması xəbəri yayıldı

## “Azərbaycan Dəmir Yolları” QSC-nin mətbuat katibi: “Yeni rəis hər gün göstərişlər verir, görüşlər keçirir, yoxlama aparır, amma hələlik kimisə işdən çıxarmayıb”

**“Azərbaycan Dəmir Yolları” QSC-nin yeni sədri Cavid Qurbanovun vəzifəyə başladıqdan sonra hansı islahatlar keçirəcəyi hər kəsi maraqlandırır. Son günlər mətbuatda Cavid Qurbanovun Ziya Məmmədovun yaxın adamlarını işdən azad edəcəyi ilə bağlı məlumatlar yayılır. Həmçinin yeni sədrin qəfil yoxlamalar keçirməsi və müəyyən çatışmazlıqlarla bağlı rəhbər işçiləri tənqid etməsi barədə də xəbərlər dolaşır.**


Cavid Qurbanov


Ziya Məmmədov

“Yeni Müsavat” olaraq bu məsələlərə aydınlıq gətirmək üçün Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat xidmətinin rəhbəri **Nadir Əzməmmədovla** əlaqə saxladıq. N.Əzməmmədov bildirdi ki, Cavid Qurbanov vaxtaşırı görüşlər keçirərək işçilərə tapşırıqlarını verir və hələ ki heç kim işdən çıxarılmayıb: “Yeni sədr dəmir yolu idarəsinin depolarına baş çəkib, çatışmazlıqları bildirib, tapşırıqlar verib. Stansiyaya, Biləcəri deposuna, Bakı deposuna baş çəkib. Sədr kimi onun səlahiyyətidir ki, istənilən yerə baş çəkib vəziyyətlə tanış olsun. Hələ ki hər hansı qərar verilməyib”.

**Kadr dəyişikliyinə gəlincə, N.Əzməmmədov bildirdi ki, bu haqda heç bir rəsmi qərar yoxdur:** “Mətbuatda müxtəlif yazılar gedir. Hər gün bir nəfərin işdən çıxarılması haqqında yazırlar. Ancaq belə bir hal yoxdur. Hər kəs əvvəlki vəzifəsində çalışır”.

Qeyd edək ki, azadlıq.info saytı “Azərbaycan Dəmir Yolları” QSC-nin yeni sədri Cavid Qurbanovun nəqliyyat naziri Ziya Məmmədovun yaxın qohumlarını işdən çıxarması haqqında məlumat verib. Məlumatda sərnişin nəqliyyatı idarəsinin rəisi Elyar Muradovun da işdən çıxarılacağı qeyd olunur.

**Qurumun mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov bu məsələyə də münasibət bildirərək mətbuatda yazılanları əsassız adlandırdı:** “Cavid Qurbanov Elyar Muradovla görüşüb, tapşırıqlarını verib. Əgər kimsə işdən çıxarılsa, bu, ilk növbədə bizə məlum olar. Səhər saat 10-da iclas keçirilib və Elyar Muradov da iclasda iştirak edib. Bu məlumatları yaymaqda kimin məqsədi nədir, bunu bilmirəm, ancaq heç bir əsası yoxdur”.

Elyar Muradovla da əlaqə saxlayaraq xəbəri dəqiqləşdirməyə çalışdıq. E.Muradov bizə mətbuat xidməti ilə əlaqə saxlamağı məsləhət görərək, hər hansı münasibət bildirməkdən imtina etdi.

**Dəmiryol işçilərinin tez-tez etiraz aksiyası keçirməsinə gəlincə, mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov bu məsələyə də münasibət bildirərək, etirazçıların Cavid Qurbanovla görüş üçün ərizə yazdıqlarını və əgər yeni sədr qəbul edərsə, görüşüb bu məsələlərə birgə aydınlıq gətirəcəklərini qeyd etdi:** “Onlar Cavid müəllimə müraciət ediblər, əgər o, qəbul eləsə görüşəcəklər. Yəqin ki, Cavid müəllim bu məsələyə biganə qalmaz”.

❑ **Nərgiz LİFTİYEVA**

# Dəyişikliyə gedən yol... daha inqilabdan keçmir

## Pənah Hüseyn: “İnqilablar effektiv və ya qeyri-effektiv, yaradıcı və ya dağıdıcı olmamışdan əvvəl “olur””

**“Ərəb baharı” dünyada inqilab yolu ilə demokratiyaya keçid mövzusunu aktuallaşdırsa da, sonradan baş verənlər bu mövzunu nisbətən arxa plana keçirdi. Məsələ ondadır ki, böyük ümidlər bəslənən ərəb inqilabları çox keçmədən daxili müharibələrə, silahlı radikal dini qrupların fəallaşmasına səbəb oldu. Hazırda inqilab baş verən ölkələrin demək olar ki, hamısında qanlı daxili müharibələr gedir və ekspertlər heç bir ölkə ilə bağlı “demokratiyaya keçiddən” bəhs etmirlər.**



Yeri gəlmişkən, “ərəb baharı” Azərbaycanda da siyasi islahatlar mövzusunu gündəmə gətirmişdi. Ancaq sonradan proseslərin yönünün dəyişməsi Azərbaycana da sirayət etdi. Maraqlıdır, Azərbaycanda 10 il əvvələ qədər demokratiyaya keçidin inqilabı yolu müzakirə olunurdu. Siyasətçilər, politoloqlar hansısa mərhələdə, seçkilər zaman “aşağıdan” inqilab nəticəsində demokratiyaya keçidin baş verəcəyini və ya deyildiyi kimi, hakimiyyət dəyişikliyinin baş verəcəyini proqnozlaşdırırdılar.

Lakin 2005-ci il parlament seçkilərindən sonra bu mövzu böyük ölçüdə kənara qoyuldu və Qərbin təsiri ilə hakimiyyətin “yuxarıdan”, tədrici islahatlar vasitəsilə demokratiyaya keçid edəcəyi ilə bağlı proqnozlar meydana çıxdı. Sonrakı “ərəb baharı” fraqmentində Azərbaycanda da inqilabi çağırışlar olsa da, aydın oldu ki, cəmiyyətin “aşağıdan” dəyişiklik üçün potensialı yoxdur.

**Mövzu ilə bağlı söhbət etdiyimiz AXP sədri Pənah Hüseyn deyir ki, ümumi olaraq avtoritarizmdən demokratiyaya keçidin iki variantı - “aşağıdan”, xalq üsyanı nəticəsində və ya “yuxarıdan”, yəni elita tərəfindən həyata keçirilən - qəbul olunsa da, bunlar xeyli dərəcədə geniş anlayışlardır:** “İnqilab böyük anlayışdır. Ümumi olaraq iki nəzəri yol təklif olunur. Bunlardan biri islahatlar yolu ilə avtoritarizmdən demokratiyaya keçiddir. Digəri isə inqilabi yol hesab olunur, yəni kütləvi xalq hərəkatları, vətəndaş müharibələri və çevrilişlərlə müşayiət olunur. Tarix, o cümlədən ən yeni tarix göstərir ki, bu cür sarsıntılar avtoritar ölkələrdə labüddür. Onun da altını cızmaq lazımdır ki, avtoritarizmdən demokratiyaya keçid uzun bir prosesdir. Lakin avtoritar rejimlər əgər özləri dəyişikliklər etmirlərsə, cəmiyyətlə açılım və dialoq təşəbbüsləri göstərmirlərsə, onların ölkələrində inqilabi sarsıntılar, vətəndaş qarşıdurmaları, çevrilişlərlə müşayiət olunması qanunauyğun haldır. Labüd deyil ki, bütün bu çevrilişlərin, üsyanların, inqilabların təsiri ilə demokratiya bərqərar olsun. Avtoritarizm qala da bilər, hakimiyyət başqa bir qrupun avtoritarizmi ilə əvəz oluna bilər və sair. Ona görə də məsələ bu şəkildə qoyulur ki, azad olmayan cəmiyyətlərdə gərginliklərin yığılması və əvvəl-axır dağıdıcı enerjinin toplanması sarsıntılara və partlayışlara səbəb olur”.

**Yumşaq keçidin tarixi nümunəsi kimi İspaniyanın və ya Argentinanın adının çəkildiyini qeyd edən həmsöhbətimizin fikrincə, siyasi analitiklərin mütləq əksəriyyəti hesab edir ki, hələlik avtoritarizmin dinc islahatlar yolu ilə demokratiyaya keçməsi nümunəsi yoxdur. P.Hüseyn deyir ki, bir çox ekspertlərə görə, daxili potensial və qlobal inteqrativ proseslərin bir-biri ilə uzlaşmasının nəticəsində demokratiyaya yumşaq keçid mümkün olur:** “Yəni burda beynəlxalq demokratiya bir baza rolunu oynayır. Prosesləri müəyyən mənada yumşalda bilər. Belə bir yanaşmalar da var. Ancaq hələlik biz bunun əlverişli nümunələrini az müşahidə edirik.

İkinci Dünya müharibəsindən sonra Yaponiya, Almaniya nümunələri də var. Ancaq bu, işğalın nəticəsində olmuşdu. Bəzi ekspertlər demokratiyanın avtoritar inqilablar yolundan da danışırlar. Misal olaraq tarixdə Türkiyədə Atatürk dövrünü qeyd edirlər".

**P.Hüseynin fikrincə, demokratiya məsələsində mədəniyyət amili çox güclüdür. “Demokratiyanın yaranması üçün həm də siyasi mədəniyyət formalaşmalıdır” - deyən həmsöhbətimizin fikrincə, bu məsələdə Amerika nümunəsi var:** “Prinsip etibar ilə əlverişli şərtlər üst-üstə düşdüyü zamanda, hətta hakim elitanın hazır olmadığı şəraitdə də bəzən bu cür islahatların nəzəri baxımdan mümkünlüyündən danışılır. Bildiyiniz kimi, ABŞ yarananda Corc Vaşinqtona krallıq təklif olunmuşdu. Özü də demokratiyanın ataları hesab olunan şəxslər tərəfindən. Lakin o, bundan imtina etdi və sonradan 3-cü dəfə prezidentliyə namizəd olmadı. Belə hallar olub, nümunələr var. Ancaq bunlar çox nadir, istisna hallardır. Nəhəng, tarixi yaradan şəxsiyyətlər olduğu kimi, demokratiyanı da yaradan şəxsiyyətlər olub. Ancaq bu cür nümunələr azdır, bir-iki belə nümunə göstərmək olar”.

**Azərbaycanda demokratiyaya keçid imkanlarına gəlincə, P. Hüseynin sözlərinə görə, siyasi iradə olarsa, Azərbaycan cəmiyyətində də demokratik islahatların həyata keçirilməsinin mümkünlüyü haqqında yerli və xarici ekspertlərin fikirləri var. Lakin həmsöhbətimiz bu variantın reallaşmasına o qədər də ümidli deyil:** “Xeyli dərəcədə mübahisəli mövzudur. Amma hər bir ideyanın da yaşama hüququ var. Bu cür məsələlər var, məsələn, kompromis olaraq müəyyən siyasi şərtlərin və siyasi qüvvələr nisbətinin elə bir halı ola bilər ki, bir sıra dəyişikliklər avtoritar yolla, yəni şəxsiyyət amili vasitəsilə həyata keçirilə bilər. Bu, nəzəri məsələdir. Amma hər halda, nəzəri də olsa, yollardan biridir.

Təəssüf ki, narahat edən də budur ki, bu mövzuda bir qanunauyğunluq var. Tamamilə proqnozlaşdırılması mümkün olmayan sarsıdıcı proseslər avtoritar cəmiyyətlərdə istənilən an baş verə bilir. İstər daxili səbəblərdən olsun, istərsə də xarici amillər səbəbindən olsun, istər sosial-iqtisadi, istərsə də sosial-psixoloji məsələlərlə əlaqədar olsun. Bizim mövqeyimiz ondan ibarətdir ki, bu sarsıntıların dağıdıcı gücünün qarşısını yalnız islahatlar ala bilər. Və yeri gəlmişkən, bir neçə il qabaq İctimai Palata “Avtoritarizmdən demokratiyaya yumşaq keçidin yol xəritəsi”ni hazırlamışdı. Hər halda, bizdə də belə sənədlər hazırlanıb ortaya qoyulmuşdu. Biz təbii ki, dəyişikliklərin mümkün qədər dağıdıcı olmadan baş verməsini arzulayırıq. Lakin bir şeydə sadəlövh olmaq lazım deyil. İnqilablar effektiv və ya qeyri-effektiv, yaradıcı və ya dağıdıcı olmamışdan əvvəl “olur”. Yəni bu bir sosial təbii hadisələr kimi meydana çıxır. O millətlər, o dövlətlər qalır ki, onlar bu qanunauyğunluğa uyğunlaşırlar. Bu prosesin qarşısında deyil, onun aparıcısı olurlar".

❑ **Kənan RÖVŞƏNOĞLU**

## İqtidar daxilində deputatlıq müzakirələri qızışır

# YAP məmur övladlarının mandatına qarşı

### Hakim partiyada deputat siyahısı bəzilərində təlaş yaradıb və nazir "dayılarının" qəbulunda növbəyə dayanıblar; "heç bir xidməti olmayan" oliqarx övladlarının parlamentdə təmsilçiliyinə Prezident Administrasiyasında da isti baxmırlar; ən çox hansı seçki dairəsi uğrunda mübarizə gedir?

**Doqquz ay sonra Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı iqtidarda ciddi hazırlıqlar başlayıb. Müxalifət düşərgəsi hələ müxtəlif formatlı birlik modeli axtarışında olsa da, hakimiyyət də narahatlıq içərisindədir.**




Əslində müxalifətin passivliyinin səbəbi aydındır: iqtidar seçkiləri yenə Məzahir Pənahovun rəhbərlik etdiyi komissiyalarla keçirməkdə israrlıdır. Amma hakimiyyət üçün də indi hamar dövr deyil: neftin qiymətinin düşməsi, fəal seçici elektoratının olduğu bəzi sahələrdə məcburi ixtisarlar, manatın kursunda enmələrin başlaması noyabradək ölkədə iqtisadi vəziyyəti daha da çətinləşdirə bilər. İqtisadi vəziyyətin seçki qutusuna birbaşa təsirini nəzərə alsaq, iqtidar sandıq başına 2010-cu ildəki kimi rahat getməyəcək, üstəlik, hətta son nəticədə gözlənilməyən sürprizlərlə də üzləşə bilərlər.

2015-ci ilin noyabrında gözlənilən bu kimi narahatlıqlar artıq YAP-da ciddi müzakirə mövzusuna çevrilib. Xəbər verdiyimiz kimi, YAP noyabr seçkilərində bəzi "əvəzolunmaz" deputatlarla vidalaşmaq istəyir. YAP funksionerləri də öz açıqlamalarında bu dəfə partiya namizədləri siyahısında "ciddi seçim" ediləcəkləri barədə xəbərdarlıq ediblər. Kimin siyahıda olacağı təbii ki, Siyavuş Novruzov səviyyəsində həll ediləcək məsələ deyil. Xəbərlər var ki, YAP-da bu məsələdə hələ ki müəmmalı susqunluq var, amma bəziləri artıq yuxarıların münasibətindən siyahıda olmayacaqlarını özləri üçün aydınlaşdırıblar. Bəziləri isə özləri panikaya düşərək hakimiyyətdəki nazir "dayılarının" qəbulunda növbəyə dayanıblar. Hətta bu panika o qədər ciddiləşib ki, YAP-ın icra katibi Əli Əhmədov partiyanın rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsini nəzərdə tutulduğundan daha tez keçirməli olub.




Ötən həftə keçirilən toplantıda Əli Əhmədov seçkilərə hazırlıq prosesinin başlanmasının vacibliyini vurğulayıb. YAP sədrinin müavini deyib ki, seçkilərə yüksək səviyyədə hazırlaşmaq lazımdır.

Qeyri-rəsmi məlumatlara görə, toplantıda YAP-ın narahatlıq doğuran siyahı məsələsinə də toxunulub. Bildirilib ki, narahatlıq üçün əsas yoxdur, çünki müxalifət "ölü haldadır" və yenə əksəriyyət hakim partiyanın namizədlərinə səs verəcək. Amma o da deyilib ki, YAP-ın yekun siyahısı hazır olduqdan sonra kimlərsə narazılıq etməsin. O da qəti deyilib ki, YAP-ın iradəsinin ziddinə olaraq kimsə namizədliyini versə, dərhal partiya sıralarından qovulacaq. Toplantıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı da iştirak edib.

Yeri gəlmişkən, məlumatlara görə, YAP-da əsas müzakirə mövzularından biri də həm Əli Əhmədovun, həm də Mübariz Qurbanlının boşalmış dairəsindən kimin deputatlığa namizəd göstəriləcəyidir. Xatırladaq ki, M.Qurbanlı 100 saylı Şəmkir - Daşkəsən, Əli Əhmədov isə Nərimanov birinci seçki dairəsindən YAP-ın namizədləri olublar. Dələduzluğa görə həbs edilən və mandatından imtina edən Gülər Əhmədovanın (Xətai seçki dairəsi), avtomobil qəzasında dünyasını dəyişən Hikmət Atayevin (Zaqatala), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Assambleyasının baş katibi seçilən Asəf Hacıyevin (Nizami ikinci (Gəncə) seçki dairəsi) yerinə namizəd olmaq uğrunda da mövqe "döyüşləri" gedir.

Siyahı ilə bağlı vəziyyəti qəlizləşdirən daha bir məqam davamlı olacağına qərar verilmiş iqtidar-müxalifət görüşüdür. YAP bu təmaslardan o qədər də məmnun deyil. Çünki belə ehtimal edilir ki, dialoq da YAP-dan bir neçə deputat "qoparacaq".

YAP-da seçki narazılığı ilə bağlı daha ilginc məlumatlar da var. YAP "qartalları" bəzi seçki dairələrini "gözaltı edən" oliqarx övladlarının parlamentdə təmsilçiliyinə qarşı çıxırlar. Onlar "təcrübəsiz gənclərin müxalifətin olacağı parlamentdə keyfiyyətli işləməyəcəyini" iddia edirlər. Qeyd edək ki, yeni parlamentdə nazir-oliqarxların övladlarının təmsilçiliyi barədə uzun müddətdir ki, söz-söhbət gəzir. Məsələn, Gəncənin icra başçısı Elmar Vəliyev bu seçkilərdə mandat verilməyəcək Gəncənin deputatı Aydın Abbasovun (Abbas Abbasovun oğlu) yerinə oğlunu Milli Məclisdə görmək istəyir. Qeyd edək ki, icra başçısının oğlu Elmir Vəliyev bir müddətdir ki, Milli Məclisdə işləyir və ictimai fəaldır.

Xəbərlərə görə, "YAP-da heç bir xidməti olmayan" nazir-məmur övladlarının parlamentdə təmsilçiliyinə Prezident Administrasiyasında da isti baxmırlar. Ehtimal etmək olar ki, YAP-ın narazılığı da Prezident Administrasiyasının bu mövqeyindən qaynaqlanır.

❑ **Xəbər xidməti**



## AŞ PA üzrə yeni məruzəçi Bakıya gəlir

### Tadeuş İvinski media rəhbərləri ilə də müzakirələr aparacaq

**AŞ PA Monitorinq Komitəsinin həmməruzəçiləri Tadeuş İvinski və Pedro Aqramunt 1-4 martda Azərbaycana səfər edəcək. AŞ PA-dakı mənbələrdən "Turan"a bəlli olub ki, həmməruzəçilər Azərbaycanın AŞPA qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi vəziyyətini monitorinq edəcəklər.**

Həmməruzəçilər səfər çərçivəsində rəsmi dairələrdə, parlamentdə görüşlər keçirəcək, vətəndaş cəmiyyətinin təmsilçiləri, hüquq müdafiəçiləri, hüquqşünaslar və media rəhbərləri ilə müzakirələr aparacaq.

T.İvinski AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi vəzifəsinə yanvarın 29-da seçilib. O, bu vəzifədə Maltadan olan Cozef Debono Qrexi əvəz edib.

İvinski 1992-ci ilin yanvarından AŞ PA-nın üzvüdür. Bir neçə il AŞ PA-nın vitse-prezidenti, AŞ PA-nın Çeçenistan üzrə məruzəçisi olub.

AŞ PA Monitorinq komitəsinin Azərbaycan üzrə ikinci həmməruzəçisi Pedro Aqramuntun səlahiyyətləri 2015-ci il iyunun 14-də başa çatır.

## İsti ölkədə sıfır cinsi tamahkarlıq



Xalid KAZIMLI

**Mayın 8-i idi. Günəşli bir səhər çağıydı. Qonaq gəldiyimiz bu şəhərdə əynində şalvar olan kişi bir biz idik, bir də rəsmi adamlar, dövlət işində, ofisdə çalışanlar. Qalan hamı 35 dərəcəlik qovurucu hərarətin diktəsi ilə yüngül yay geyimindəydi - qısa şort, mayka, kepka. Şəhərin ortasında qabağımıza az qala çimərlik paltarında qaçan, idman edən adamlar çıxırdı.**

Söhbət ABŞ-ın Cənubi Karolina ştatının paytaxtı Kolombia şəhərindən gedir. İl 2010. Biz Azərbaycandan getmiş 6 nəfər idik - 4 kişi, 2 qadın. İlk dəfə gördüyümüz ölkə bizə çox maraqlıydı, hər şeyə diqqət yetirirdik.

Həmin gün şəhərin geniş və abadan mərkəzi parkının yanında dayanmışdıq, bir azdan hansısa media qurumuna daxil olacaqdıq. Bələdçimiz bizə bir qədim binanı göstərirdi. Əlimdəki fotoaparatla şəkillər çəkirdim. Bir də gördüm ki, bir gənc, qısa şort geymiş bir gözəl qadın velosipedi ilə parka girdi, əlindəki şirə şüşəsini yerə qoydu, velosipedini də bir kənara atdı və səhər günəşinin şüalarının düşdüyü yerdə pərqu yataqdaymış kimi uzanıb gözlərini yumdu. Maraqlı mənzərə idi. Onun yanından o yana-bu yana gənc kişilər keçirdi. Onların sırasında ağ adamlar da vardı, qaradərililər də, Latın Amerikası ölkələrindən olanlar da, asiyalılar da. Ona da fikir verdim ki, həmin kişilərin heç biri o qadına gözlərinin ucu ilə də baxmır. Azad ölkədə gözəl bir qadının bu cür yüngül geyimdə parkın ortasında sərbəst şəkildə uzanması və ətrafdakıların ona məhəl qoymaması mənə çox maraqlı gəldi və o mənzərənin şəklini çəkdim. Niyyətim o idi ki, vətənə qayıdanda bu şəkli dost-tanışa göstərim və deyim ki, Amerika belə bir yerdir.

Həmin səfərimiz zamanı biz çox kollektivlərdə, iaşə obyektlərində, ticarət mərkəzlərində olduq. Minlərlə insanla qarşılaşdıq, ünsiyyət yaratdıq. Hər yerdə bir məqam diqqətimdən yayınmadı. Bu ştatda qadınlara gözlərini bərəldərək, seksual şövqlə baxan bir kişi belə yox idi. Onlar birdəfəlik qəbul ediblər ki, qadın toxunulmazdır, başqasının qadının, qızının üzünə belə baxmaq qeyri-etikdir.

Deyilə bilər ki, bir də onların gecə barına getsəydiniz... Şəhərin ən məşhur, ən qələbəlik barına da getdik. Salonda hər millətdən olan azı 300 adam vardı. Hamı öz dostlar dairəsi ilə ayaq üstə, ya da oturub yeyib-içir, deyib-gülür, əylənirdilər. Nə başqasına ilişən, sataşan vardı, nə də gendən-genə marıtlayan, göz-qaş edən. Hətta toqquşmaq, bir-birinə toxunmaq vaqiəsi olanda belə təqsirin bizdə olmasına rağmən ilk olaraq qarşı tərəf "ekskyüzmi" deyirdi.

Bu barədə təəssüratımı dostlara danışarkən, sonradan yazı yazarkən bir dəfə belə bir ifadə işlətmişdim: "Cənubi Karolinada qadınların bədənini, üzlərini örtməsinə ehtiyac yoxdur, orda hicab kişilərin gözündədir".

Bəzən şərq ölkələrini bürümüş cinsi tamahkarlığa, zorakılığa haqq qazandırmaq üçün deyirlər ki, şimal ölkələri ilə müqayisədə isti ölkələrdə bu məsələ başqa cürdür, guya ki, isti ölkələrin kişilərinin qanı qaynardır, erkəklik hissləri yüksəkdir. Cənubi Karolina təxminən Antalya, Dubay qədər isti bir yerdir. Amma yayda 35-40, bəzən 45 dərəcəlik isti karolinalı kişilərə mənfi təsir göstərə, onları sapığa, manyaka çevirmirsə, deməli, bu, təbiət hadisəsi deyil, mədəniyyət məsələsidir.

Amerikanın yazılmış və yazılmamış qanunları, ölkənin ümumi mədəni səviyyəsi diktə edib ki, insanların tam əksəriyyəti öz cinsi hisslərinə hakim olsunlar, anlasınlar ki, küçədə, ictimai nəqliyyatda gedən gözəl qadın onlarınkı deyil, başqasınınkıdır, ona marıtlamağın, tamah salmağın xeyri yoxdur, əksinə, problem yarada bilər.

Şərq ölkələri xirtdəyə qədər o problemlərin içindədir. Hər gün minlərlə qadına, qıza sataşırlar, nə qədər oğlan qız üstündə döyülür, öldürülür, neçəsi zorlama üstündə türməyə düşür, həyatı birdəfəlik puç olur.

"Filan qadın öz geyimi ilə (gülüşüylə, hərəkətiylə) gəncləri təhrik etdi" bəhanəsi işə yaramaz. Təhrik olmayacaqsan, cızığından çıxmayacaqsan.

Ona qalsa Amerikada çəkdiyim şəkildə yarıçılpaq halda çəmənliyə uzanmış gənc və gözəl qadın ətrafdakı kişiləri təhrik edirdi, amma ona baxan yox idi. Bizdə olsa ətrafına əlli gənc yığışıb tamaşaya durmuş olardı.

YENİ MÜSAVAT
N 37 (6065) 18 fevral 2015



# Atları döngələrdə dəyişməzlər...

**Hüseynbala SƏLİMOV**

**Hansımız bu hissi keçirməmişik? Bəli, əlimiz hər şeydən üzüləndə, hər şeyin itirildiyini və bir daha geri qayıtmayacağını görəndə, bu vaxta qədər etdiklərimizin bir çürük qoz qədər mənası olmadığını anlayanda bir təsəllimiz olub: özümüzə demişik ki, əşi, Azərbaycan ki, müstəqildir...**

Bəli, bu, bizim son təsəllimiz olub. Hətta ağlımıza da gətirməmişik, daha doğrusu, bunu düşünməyə cəsarət etməmişik ki, bir gün bu məsələyə də kölgə düşə bilər və biz başlayarıq ölkənin müstəqilliyinə şübhə ilə yanaşmağa...

Amma ötən yazıda bir cümlə yazdıq. Yazdıq ki, bizə elə gəlir, hakimiyyətin amerikafobiyasının arxasında başqa mətləblər dayanır...

Yox, fikrimizdən keçmirik, onu bir daha təkrar edirik. Azərbaycan Rusiyaya qarşı sanksiyalara etiraz edəndə bu fikir bizdə bir az da gücləndi... Başa düşdük ki, biz Rusiyadan qorxuruq, özü də möhkəm qorxuruq. Amma bizə elə gəlir ki, bu, təkcə qorxu məsələsi deyil; biz də olmasaq, hər halda, Azərbaycan hakimiyyəti Rusiyadan çox asılıdır...

Bir daha əvvəl yazdıqlarıma qayıtmaq istəmirəm. Düşünürəm ki, o yazıları oxuyanlar oxuyub, oxumayanlara isə təkrar oxutmağa cəhd etməyə ehtiyac yoxdur; oxumayıblarsa deməli, onlara maraqlı görünməyib...

Əsas nədir? Odur ki, biz özümüzə təsəlli verməkdə nə qədər haqlı olmuşuq? Hər halda, Rusiya prezidentinin təxminən iki il bundan əvvəl hərbi gəmilərin müşayiəti ilə Bakıya təşrif buyurması və ölkədəki seçkilərə siyasi "xeyir-dua" verməsi bizə arxayınçılıq üçün ciddi əsaslar olmadığı haqda siqnal olmalı idi. O siqnalı biz düzgün tuta bilmədik, çünki o vaxt cəmi müxalifət olmasa da, onun əhəmiyyətli hissəsinin özü də Rusiyadan nicat gözləyirdi...

Məni düzgün başa düşün. Mən Rusiyanı əvvəlki kimi müdhiş bir ölkə kimi təsəvvür etmirəm. Amma özünüz görürsünüz Krımda, şərqi Ukraynada nələr baş verir?

Təbii ki, bu olaylar Azərbaycana bir qədər ehtiyatlı olmağı təlqin etməli idi, gəl, məsəl var, deyirlər ki, Roma papasından artıq katolik olmağa çalışmağa da dəyməz, hər şeyin həddi var-hələ böyük Nizami deyirdi ki, hətta suyu da çox içəndə bunun ziyanı olur...

İndi nə baş verir? Mən doğrusu, Ceyms Uorlikin fəaliyyətini izləmirəm, heç bilmirəm də o, öz "səhifə"lərində Azərbaycan haqda nə yazır...

Minsk Qrupunun həmsədrlərinin təyinatı praktikası da elə də aydın deyil. Bir məsələ var ki, Azərbaycan bu təyinatlara təsir etməyin yollarını aramalıdır və bu məqsədlə ABŞ-dan küsməməli, əksinə bu ölkənin hökumətinin diqqətinə çatdırmalıdır ki, Minsk Qrupunun həmsədri ən azı neytral adamların sırasından seçilməlidir...

Amma reallıqda nə görürük? Deyirlər ki, filankəs filan qəzetdə Azərbaycan hakimiyyətinin əleyhinə müsahibə verib. Bir fikirləşək. Filankəsin mövqeyi nə dərəcədə ABŞ hökumətinin mövqeyini əks etdirir?..

Güman etmirəm ki, bizim hakimiyyətdə belə sadə şeyləri bilən tapılmır. Onlar hər şeyi bilirlər. Bəs onda problem nədədir? Ceyms Uorlikin "səhifə"lərindəmi?

Yox, elə deyil. Bu gün ABŞ-ın başı Ukraynaya, İŞİD-ə qarışıb, bəlkə heç Azərbaycan yada da düşmür...

Amma Azərbaycanda elə təəssürat yaranır ki, bu hakimiyyət ABŞ-la müharibə ərəfəsindədir. Bir vaxt İran bizim hökumətdən bəzi şeylər tələb edəndə buna qətiyyən yol vermirdilər. İndi isə İran rahat ola bilər; Azərbaycan hökuməti öz amerikafobiyası ilə İranı da ötüb keçib...

Niyə görə buna belə emosional reaksiya veririk? Səbəbi sadədir. Bu vaxta qədər belə hesab etmişik ki, Azərbaycanın nicatı Qərblə, xüsusən də, ABŞ-la konfrontasiyada deyil, onlarla konstruktiv əməkdaşlıqdadır...

Ən maraqlısı isə bilirsiniz nədir? Hakimiyyət ABŞ-la bağlı "dinləmə"lər keçirir. Olsun. Hamı Qərbi, xüsusən də ABŞ-ı tənqid edir. Yenə də olsun. Gəl, dərhal sual yaranır. Bəs müxalifət haradadır? Haradadır özünə bu vaxta qədər "qərbçi" deyən müxalifət? Onlar niyə bir toplantı keçirmir?

Təbii ki, belə toplantını televiziyalar az işıqlandıracaq, bəlkə də heç işıqlandırmayacaq. Amma mətbuat da var. Nə olsun ki, qəzetlər indi az alınır. Saytlar ki, oxunur...

Bir daha deyirik ki, bizi əsla ABŞ-ı tənqid edilməsi narahat etmir. Bu xüsusda çox canfəşanlıq edilməsi narahat edir...

Elə təsəvvür yaranır ki, sanki hökumət V.Jirinovskinin bir-iki "azərbaycanpərəst" bəyanatının əvəzini qaytarmağa çalışır. Amma siyasətdə bir məsələ var: deyirlər ki, atları döngələrdə dəyişməzlər, bu, çox təhlükəli də ola bilər...

# Əli Həsənov Türkiyədə

**Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Türkiyədə TRT-nin baş direktoru Şenol Göka ilə görüşüb. "Qafqazinfo" "AzərTAc"a istinadən xəbər verir ki, "Bir millət, iki dövlət" kəlamının xatırlandığı görüşdə ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərindən, xüsusilə media sahəsində əməkdaşlıq məsələlərindən bəhs edilib. Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənov TRT-nin fəaliyyətini yüksək qiymətləndirib.**



Ş.Göka xalqlarımız arasında əlaqələrin daha da möhkəmlənməsinə TRT-nin daim dəstək verdiyini diqqətə çatdırıb.

Görüşdə Azərbaycanla Türkiyə arasında bütün sahələrdə, eləcə də media sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğu bildirilib, həyata keçirilən birgə layihələrin bu əməkdaşlığı daha da genişləndirəcəyinə əminlik ifadə edilib.

Ş.Göka bildirib ki, TRT tərəfindən ortaq coğrafi məkanda istifadə edilən türk sözlərinin üç dildə *(türk, Azərbaycan, Türkmənistan)* tələffüzünün əks olunduğu səsli lüğətin hazırlanması üzərində iş yekunlaşmaqdadır. Bu layihə xalqlarımızın daha da yaxınlaşmasına, bir-birilərini daha yaxşı başa düşmələrinə kömək edəcək.

Prezident Administrasiyasının rəsmisi Əli Həsənov layihənin çox yaxşı təşəbbüs olduğunu vurğulayıb. Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov da görüşdə iştirak edib.

# Müsavat iqtidar-müxalifət görüşünə qatılacaq

**Müsavat Partiyasının Divanı hakimiyyətin siyasi partiyalarla əlaqələrin qurulması istiqamətindəki son təşəbbüsləri müsbət qiymətləndirib. Eyni zamanda müzakirə olunacaq mövzuların qabaqcadan müəyyən edilməsi və görüşün formatının Müsavatla əvvəlcədən razılaşdırıldığı halda partiyanın bu prosesdə iştirakı mümkün hesab edilib.**

Qeyd edək ki, bir neçə gün öncə Müsavat başqanı Arif Hacılı "Yeni Müsavat"a müsahibəsində bildirmişdi ki, partiyanın görüşlə bağlı irəli sürdüyü iki təklifdən biri qəbul olunub. Qalır ikinci təklif, bu təklif görüşün formatı ilə bağlıdır. Partiyanın Divanının son iclası haqqında açıqlamada da bu məsələ vurğulanır.

Növbəti görüşün aprel ayının birinci yarısı keçiriləcəyi gözlənilir. Əldə etdiyimiz məlumata görə, budəfəki görüşdə mövzu parlament seçkiləri ilə bağlı ictimai-siyasi vəziyyət ola bilər. Müsavat Partiyası isə parlament seçkilərinə hazırlaşan təşkilatdır. Bu baxımdan Müsavatın növbəti görüşdə iştirakı ehtimalı artırmı, gözlənilirmi?



**Gülağa Aslanlı:**
"İndiyə qədər keçirilən görüşlərdə müxalif mövqedə olmayan partiyalar da iştirak edirdilər"



**Sərdar Cəlaloğlu:**
"Müsavatın görüşə qatılmaması ilə artıq format müəyyəndir"



**Aydın Mirzəzadə:**
"Bu razılaşma bundan sonra da davam edəcək"

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, Müsavat görüşün formatı məsələsini təklif edəndə onu nəzərdə tutur ki, proqram və nizamnamələri, tələbləri, istəkləri üst-üstə düşən partiyalarla-real müxalifət təşkilatları ilə görüş tamam başqadır, siyasi partiyalarla görüş tamamilə başqadır:** "İndiyə qədər keçirilən iki görüş siyasi partiyalarla hakimiyyət təmsilçisinin görüşü idi. O görüşlərdə müxalif mövqedə olmayan, hakimiyyətyönlü olduğunu açıq şəkildə bəyan edən partiyalar da iştirak edirdilər. Ona görə də bu formatda görüşləri iqtidar-müxalifət görüşü adlandırmaq düzgün deyil. Biz hesab edirik ki, əgər iqtidar-müxalifət görüşündən söhbət gedirsə, format buna uyğun olmalıdır. Məsələn, format belə qoyula bilər ki, Seçki Məcəlləsində dəyişiklik istəyən, seçki komissiyalarının paritet əsasda formalaşmasını istəyən siyasi partiyalarla görüş olsun. Belə olarsa, biz bu məsələni müzakirə edib müvafiq qərar verə bilərik. İndiyə qədər keçirilən görüşlərdəki partiyaların ən azı 10-u seçki məsələsi ilə bağlı hakimiyyətin mövqeyini dəstəkləyən partiyalardır. Həmin partiyalarla görüşüb müzakirə aparılmasının əhəmiyyəti yoxdur. Bu, şəxsi fikrimdir. Bütün hallarda Müsavat Partiyasının strukturları müzakirə edib qərar verəcəklər".

**Əli Həsənovla görüşdə iştirak edən ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, əslində ikinci görüşdə müzakirələrdə format məsələsi də müəyyənləşib:** "Optimal bir formatda bu görüşlərin davam etdirilməsi qərarına gəldik. Müsavatın görüşə qatılmaması da formatla bağlı idi. Artıq format müəyyəndir. Görək necə olur, format Müsavat Partiyasını qane edəcəksə, hər halda, iştirak edəcək. Müsavat formatla bağlı öz təkliflərini də qoya bilər. Mən bu prosesə çox ümidlə baxıram. İqtidar geriyə addım atmasa, bu proses çox əhəmiyyətli siyasi dialoq prosesinə çevrilə bilər. Siyasi dialoq Azərbaycanda ümumi dəyişilmələr üçün zəmin hazırlayacaq əvəzsiz demokratik prosedurdur".

**YAP icra katibliyinin siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə isə bildirib ki, keçirilən görüşlər ilk növbədə müxalifət və fərqli düşünən insanlarda öz fikrini bildirmək, həmçinin polemikada olmaq imkanı ilə ölçülür. Azərbaycanda siyasi qüvvələr arasında belə polemika mühitinin olması müsbətdir:** "Vaxtaşırı iqtidarın təşəbbüsü ilə dəyirmi masa formasında görüşlər də keçirilir. Yeni bu öz səmərəliliyini göstərib. Sonuncu müxalifət-iqtidar arasında olan dialoq isə əvvəlkilərdən keyfiyyətinə görə xeyli fərqlənir. Artıq dialoqun müntəzəm olaraq iki aydan bir keçirilməsi və əvvəldən razılaşdırılmış məsələlərin müzakirə edilməsi qərara alınıb. Hesab edirəm ki, bu razılaşma bundan sonra da davam edəcək. İqtidar müxalifləri dinləməyə, onlarla fikir mübadiləsi etməyə həmişə hazır olub. Sonuncu görüş də bunu bir daha göstərdi. Dialoqun keçirilməsi bir siyasi mədəniyyətdir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 37 (6065) 18 fevral 2015

# Qubad İbadoğlu təşkilatının təsis konfransına hazırlaşır

## Müsavat rəhbərliyi ADR-ə qoşulan müsavatçılara çağırış edir, partiyadan çıxarılmalar istisna deyil...

**Fevralın 21-də Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının təsis konfransı keçiriləcək. Bu barədə ADR-in Təşkilat Komitəsinin sədri Qubad İbadoğlu məlumat verib. O bildirib ki, ADR-in təsis konfransı fevralın 21-də, saat 9-dan 13-dək Beynəlxalq Mətbuat Mərkəzində baş tutacaq.**

"Hazırda konfransa hazırlıq işlərini davam etdirən ADR Hərəkatının Təşkilat Komitəsi bu məqsədlə hər gün yığışaraq konfransa qədər ADR Hərəkatının Nizamnaməsinin və proqramının, 2015-ci il üçün fəaliyyət istiqamətləri və 2015-18-ci illər üçün strateji planının layihələrini müzakirə edəcək, bütün bu sənədlərin qəbulu Təsis Konfransında gözlənilir",- deyə Q.İbadoğlu bildirib. Onun sözlərinə görə, konfransda həmçinin ADR Hərəkatının sədri, idarə heyəti, ali şurası və nəzarət təftiş komissiyasının üzvlərinin seçkisi keçiriləcək. Konfransda 30 rayon təşkilatının, gənclər və qadınlar qolunun formalaşdırılması üzrə Təşəbbüs Qrupunun üzvləri iştirak edəcək. Konfransa qonaq qismində ictimai xadimlər və media mənsubları da dəvət alacaqlar.

Qeyd edək ki, ADR-in paytaxtda və rayonlarda yaradılan təşəbbüs qrupunun əksər üzvləri Müsavat Partiyasının üzvləridir. ADR-in təsis olunmasından əvvəl Q.İbadoğlunun partiyadan çıxarılması digər ADR üzvləri ilə bağlı narahatlıq yaradır. ADR-ə qoşulan


Qubad İbadoğlu

müsavatçıların partiyadan çıxarılıb-çıxarılmaması da müzakirə olunan məsələlərdəndir. Müsavat başqanının müavini **Elman Fəttah** isə məsələ ilə bağlı musavat.com-a açıqlama verib. O bildirib ki, ADR-in təsis konfransının olub-olmamasının Müsavat Partiyası ilə heç bir əlaqəsi yoxdur: "ADR-də müsavatçıların təmsil olunmasını istəmirik. Onlara izahatlarımız, çağırışlarımız davam edir. Amma onlarla bağlı münasibətimiz hansısa toplantıda iştirak edib-etməməkdə bağlı deyil. Bütövlükdə ADR-i Müsavata qarşı bir təşkilat hesab edirik. Müsavatçılar onun təşkilində olmamalıdırlar. Bununla bağlı düşünməlidirlər. Əgər bu proses uzun müddət davam edərsə, yəqin ki, biz hansısa formada məsələyə münasibət bildirəcəyik. Amma konkret toplantı ilə bağlı məsələ bizdə gündəlikdə yoxdur".

**Toplantıda iştirak edənlərin partiyadan çıxarılacağı ilə bağlı ehtimal və narahatçılıqlara gəldikdə isə E.Fəttah məsələyə fərdi yanaşdıqlarını bildirib:** "Biz məsələyə fərdi yanaşırıq. Kimlər öz fəaliyyətində Müsavat Partiyasının nizamnaməsini pozursa, kimlər öz fəaliyyətində Müsavat Partiyasının nizamnaməsinin, xüsusilə də partiyanın nüfuzuna zərbə vuran fəaliyyətinə davam edirsə, o zaman onun fərdi məsələsinə partiyada baxılır. Biz də eşidirik, bilirik, kimlər hansı fəaliyyət göstərirlər. Bəziləri Müsavata qarşı olmadıqlarını deyirlər. Biz fəaliyyətlərini izləyirik. Təkrar edirəm, Müsavat Partiyasına qarşı olan insanların Müsavat Partiyasında üzvlüyü davam edə bilməz. Özləri bu məsələni yekunlaşdırmalıdırlar. Kimlər özləri yekunlaşdıracaq, biz alqışlayacağıq. Kim ki, partiyada fəaliyyətini davam etdirir, kim ki, fəaliyyətini partiyadan kənarda davam etdirir, onlara da uğurlar arzulayacağıq. Amma bu məsələni özləri qərar verməyənlər haqqında, əgər fəaliyyətləri Müsavat Partiyasına qarşı sistemləşəcəksə, təbii ki, müzakirə olunacaq. Bu, gələcəyin məsələsidir. Müzakirə olunmadan bu barədə bir şey deyə bilmərəm".

❑ Röya RƏFİYEVA

# Müsavatda yeni "təmizləmə" xəbəri

## Razim Əmiraslanlı: "Bəzi partiya üzvlərinə qarşı rəhbərlik kifayət qədər səbr nümayiş etdirir və güzəşt edilir"

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlının ADR-də olan Müsavat üzvlərinin nizamnaməni pozduqları halda cəzalandırılacaqlarını açıqlamasına Qubad İbadoğlu sərt cavab verib. APA-ya açıqlamasında Qubad İbadoğlu deyib ki, Müsavatda yeni təmizləmələr olacaq. Eyni zamanda deyib ki, bu gedişlə bir də görəcəklər partiyada rəhbərlikdən başqa heç kim qalmayıb:**

"Nizamnaməni pozanlar bu cür açıqlama verənlərdir və ilk cəzanı da nizamnaməyə zidd bəyanatla çıxış edənlərə verməl lazımdır. Çünki bu açıqlama nəinki Müsavat Partiyasının Nizamnaməsinə, ən əsası Azərbaycan qanunvericiliyinə və insanların fundamental azadlığına ziddir. Onlar bilməlidirlər ki, istənilən şəxs azad şəkildə ictimai təşkilatlarda birləşə və fəaliyyət göstərə bilər. Bu, hər bir vətəndaşın fundamental hüquqlarından biri olan birləşmək hüququdur. Bu dəyərlərə hörməti olmayan adamların siyasi fəaliyyətlə məşğul olması partiyadakı vəziyyəti aydın göstərir".

**Q. İbadoğlu bildirib ki, partiya daxilində nizamnamə norması insanların ictimai mənsubiyyətinə görə tətbiq oluna bilməz:** "Bu açıqlama həm də Müsavatda partiyadaxili demokratiyanın olmamasının, əks fikrə dözümsüzlüyün göstəricisidir. Belə antidemokratik açıqlamalar partiyanın onsuz da gündən-günə azalan nüfuzuna ciddi zərbədir. Bu açıqlama mənim partiyadan nəyə görə uzaqlaşdırıldığıma da aydınlıq gətirdi. Bu açıqlama göstərdi ki, mənim partiyadan uzaqlaşdırılmağım rəhbərlik etdiyim Azərbaycan Demokratiya və Rifah Hərəkatının uğurlarına görədir, bu qərar hüquqi deyil, siyasi müstəvidə sifarişlə və rəqiblərə qarşı qeyri-sağlam yanaşmadan, qısqanclıqdan irəli gələrək verilib. Bu isə acizlərə məxsus xüsusiyyətdir. Bu açıqlama Müsavat Partiyasında yeni "təmizləmə" əməliyyatlarına başlanacağından da xəbər verir. Belə gedişlə bir də görəcəklər ki, partiyada mövcud rəhbərlikdən başqa heç kim qalmayıb. Onlar hələ də başa düşmürlər ki, sıravi üzvlərsiz rəhbərlik heç kimə lazım olmayacaq".



**Müsavat Divanının üzvü, partiyanın təşkilat şöbəsinin müdiri Razim Əmiraslanlı isə "Yeni Müsavat"a bildirdi ki, Qubad İbadoğlunun təmizləmə aparılacağı və partiya ilə bağlı proqnozu əsassızdır:** "Bu iddiaların heç bir əsası yoxdur. Müsavat Partiyası demokratik, nizamnamə ilə idarə olunan bir təşkilatdır. Müsavatdan xaric edilən şəxslərlə bağlı qərar siyasi yox, hüquqi əsaslandırılmış qərarlardır. Kim nizamnamənin konkret maddələrini pozubsa, onlar barəsində nizamnamənin tələbinə uyğun tədbir görülüb. Nizamnamə pozuntusuna yol verməyən hansısa şəxsin partiyadan xaric edilməsi halı olmayıb və ola bilməz. Bundan sonra kim partiya nizamnaməsini pozacaqsa, Müsavatın ideoloji-siyasi xəttinə qarşı çıxacaqsa, partiyanın ictimai nüfuzuna xələl gətirəcəksə, nizamnamə çərçivəsində tədbir görüləcək. Bir şeyi də xüsusi qeyd etmək istəyirəm ki, hətta bəzi partiya üzvlərinə qarşı rəhbərlik kifayət qədər səbir nümayiş etdirir və güzəşt edilir. Onlar da gərək bundan sui-istifadə etməsinlər".

R.Əmiraslanlının sözlərinə görə, Qubad İbadoğlunun gələcəklə bağlı fikirlərini ortada olan real statistika heçə endirir. Qurultaydan bu günə qədər partiyadan cəmi 6 nəfər xaric olunub. Özü partiyadan çıxdığını elan edənlərin sayı ilə bu rəqəm 30 nəfəri keçmir. Bu müddətdə partiyaya üzv olanların sayı isə bundan xeyli çoxdur.

❑ E.SEYİDAĞA

# Biznesmenlər də Naxçıvanı tərk edir

## Sülhəddin Əkbər: "Nəinki ictimai fəallar, biznes sahəsində olanlar da öz yurdunu tərk etməli olub"

**Naxçıvanda idarəçiliyin Şimali Koreya modeli mövcuddur. Muxtar respublika Oruellin "1984" romanında baş verənlərin əyani sübutudur. Total nəzarətdə olan naxçıvanlıların nəinki ifadə azadlığı, siyasi azadlıqları var, heç şəxsi həyatlarını belə sərbəst yaşamağa imkan verilmir.**


Sülhəddin Əkbər

Binaların balkonundan paltar asmaqdan tutmuş yas məclislərində ehsanın verilməsinə qədər rəsmi səviyyədə müdaxilə var. Naxçıvanda jurnalistlərin, siyasi partiya üzvlərinin, hüquq müdafiəçilərinin fəaliyyəti demək olar ki qadağandır.

Ümumiyyətlə, blokadaya alınmış respublikaya girişə də icazə verilmir. Yanvarın 24-də Naxçıvanda saxlanan 3 dindarın həbsi isə Naxçıvanda hansı şəraitin hökm sürdüyünə növbəti qorxulu sübut idi. Polisə aparılan inanclılardan tələb olunub ki, Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbova qarşı bir müddət əvvəl paylanmış vərəqələri onların etdiyini bildirsinlər.

Onlara təzyiq göstərilərək imza atdırılıb. Lakin həbs olunan 4-cü vətəndaş protokolu imzalamadığı üçün onları həbs etmək mümkün olmayıb və 7 gün polisdə saxlandıqdan sonra buraxılıb. Ancaq daha əvvəl həbs olunan 3 nəfərin cinayətlərini etiraf etməsi səhnəsi Naxçıvan televiziyası tərəfindən lentə alınıb, lakin həmin görüntülər efirə verilməyib.

Əslən naxçıvanlı olan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər hesab edir ki, ölkədə insan haqları sahəsində vəziyyətin pisləşməsi Naxçıvanda xüsusi nəzərə çarpır. Onun sözlərinə görə, muxtar respublikaya quru yolla əlaqənin olmaması və rejimin xarakterini nəzərə alsaq, Naxçıvan təcrid olunub.

S.Əkbər deyir ki, artıq nəinki ictimai fəallar, biznes sahəsində fəallıq edənlər, Naxçıvan elitası da öz yurdunu tərk etməli olub:

"Nəticədə dırnaqarası bir sabit mənzərə yaradılıb. Ölkədə demokratiya və insan haqları sahəsində fon pisləşdikcə, Naxçıvanda daha da pisliyə doğru gedir. Biz hər zaman Naxçıvanda pisləşmənin başa çatdığını qeyd edirik. Ancaq yenə də Naxçıvan rəhbərliyi fərqlənə bilir". Partiya sədri Naxçıvana getmədiyini və gedərsə necə qarşılanacağını bilmədiyini vurğuladı.

❑ E.SALAMOĞLU



# Elman Fəttahın maşınını qarət edənlər tapılmır

## Orxan Mansurzadə: "Oğruların tapılması istiqamətində əməliyyat - axtarış tədbirləri davam etdirilir"

**Fevralın 10-da Müsavat Partiyasının başqan müavini Elman Fəttahın maşınının qarət edilməsindən bir həftə keçməsinə baxmayaraq, hələ də oğrular tapılmayıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə "Yeni Müsavat"a açıqlamasında araşdırma aparıldığını bildirdi: "Hadisə yeri müəyyən olunub və Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə faktla bağlı cinayət işi qaldırılıb. Müvafiq ekspertizalar və digər təxirəsalınmaz tədbirlər həyata keçirilir. Hazırda isə həmin cinayətin açılması və oğurluğu törətməkdə şübhəli olan şəxsin və ya şəxslərin müəyyənləşdirilib tutulması istiqamətində zəruri əməliyyat-axtarış tədbirləri davam etdirilir".**

Qeyd edək ki, E.Fəttahın "KİA" markalı avtomobilindən bir neçə qutu siqaret, ətir və 150 avro pulu oğurlanmışdı.

❑ Günel MANAFLI



# Yer dombalaq aşır

Zamin HACI
zaminhaci@gmail.com

"Düz yeri bir yupyumuru şey qanır,
Həm də deyir sutkada bir fırlanır,
Ay dolanır, göy dayanır, gün yanır,
Kafirə bax, gör nə bədimandı bu!
Dur qaçaq, oğlum, baş-ayaq qandı bu!"
**(Mirzə Ələkbər Sabir)**

**Səudiyyə Ərəbistanından bir müsəlman din xadimi - əslində orda başqa din xadiminin olması mümkün də deyil - təzəlikcə ərz eləyibdir ki, Yer kürəsi fırlanmır, bunlar hamısı Qərbin yalanlarıdır.**

Doğrudan da Avropa və Amerika hər zaman biz şərqliləri, xüsusən müsəlmanları aldadıb var-dövlətlərini əllərindən almağa çalışıbdır. Bizi bir-birimizə qırdıran da onlardır. Misal üçün, Yezid Lənətullah əslən Amerikanın Texas ştatından, Hyuston şəhərindən olmuşdur. Bunlar hamısı risalələrdə, hədislərdə səhih şəkildə yazılıbdır.

Sözüm bunda deyil. Səudiyyəli imamın dərin məzmunlu astronomik kəşfi Qalileyi qəbirdə fırlatmaqla yanaşı Bakıda Qamət Süleymanovu da tərpətmişdir. Sələfilərin bu maraqlı lideri bəyan edib ki, imam doğru buyurur, Yer fırlanmır. Sitat: "Yer kürəsinin fırlanması haqda İslam alimləri deyib ki, fırlanmır. Onlar da Qurandakı bir neçə ayəyə istinad edib. Məsələn, "Yer üzü sabitdir", "Göydə nə varsa, hamısı üzür" ayələrini misal çəkmək olar. Məsələn, Bakıdan təyyarəyə minib Amerikaya gedirsən. Təyyarə havada dayananda, Amerika özü sənin yanına gələcək. Amma Amerika sənin yanına gəlmir. Məcbur olursan ki, Amerikaya 7-8 saat uçasan. Əgər bu fırlanırsa, çıxaq yuxarıda dayanaq, hansı ölkəni istəyiriksə, bir neçə saata özü gələcək. Alimlərin gəldiyi nəticə budur". Sitatın sonu.

Əslində Qamət müəllimin bu dərin fikirləri məni o qədər də maraqlandırmır. Mən sadəcə yadıma saldım ki, bu adamın cümə moizələri olanda "Montin" tərəfdəki Əbubəkr məscidinə yığışan adamların, türkün sözü, quyruğu 28 maydan yalan olmasın Nərimanov metrosuna qədər uzanırdı. Gör indi o adamların elm, bilik səviyyəsi nə yerdə olubdur.

İkincisi, bəzi yoldaşlar həm imamı, həm Qamət müəllim kimilərini yalançı çıxartmaq üçün fizika elmindən, Yerin atmosferindən-filandan misal gətirirdilər. Hətta daha dərinə gedib yazırdılar ki, a kişi, atmosfer də Yerlə fırlanır, sən havaya qalxanda atmosfer yerində qalsaydı külək hər yerini dağıdardı. Məncə bu sonuncular - elmi izahat verənlər lap səfeh adamlar idilər. Ona görə yox ki, ərəb imama və Qamət müəllimə baş qoşmuşdular. Yox. Səbəb başqadır.

Səbəb odur ki, hər kəsin istədiyi elmə inanmaq hüququ vardır. İstəsən lap Yer kürəsinin üç öküzün buynuzunda, həmin öküzlərin də tısbağanın belində dayandığına inana bilərsən. Bunun başqalarına qəti dəxli yoxdur. Ona qalsa 20 ildir bizim orta məktəblərdə "YAP gəldi, Azərbaycan bəladan qurtuldu, yurdumuza Günəş doğdu" məzmunlu dərslər keçilir. Nəsə deyə, etiraz edə bilirsən? Beş-on nəfər etirazçı vardı, onların da yarısını türməyə saldılar, yarısı qaçıb qurtardı.

Üstəlik, dünyanın işlərinə bir az da milli bucağımızdan baxanda görürsən dindarlar doğru buyurur. Yer fırlansaydı bizdə də gecə gündüzlə əvəz olunardı. Ancaq 24 saat qaranlıqda bayquş kimi ulaşırıq.

Bunlar öz yerində. Ancaq Qamət müəllimin "Əgər Yer fırlansa Amerika özü sənin yanına gələrdi" cümləsində ciddi siyasi yanlışlıq var, "hesab edirəm" *(Müsavat başqanı demişkən)* hökumət buna qarşı tədbir görməlidir. Çünki Amerika nəinki bizim yanımıza gəlir, hətta analoqu olmayan xarici siyasətimizin donunun ətəyindən öpür! Azərbaycan mayası nur, qayəsi nur, hər daşından alov dilli ox olar-filan... Şair demişkən. Keçən həftə deputatxanada beş-on nəfər yapist yığışıb ABŞ-ı mələtdilər, bundan sonra amerikalılar Bakıya həm səfir, həm də xarici işlər nazirlərinin müavininin köməkçisinin katibəsini göndərdilər. Əfqanıstanda bin Ladeni biz satmasaq, bəlkə indiyəcən sağ idi. ABŞ həmişə bizim ayağımıza gəlməyə məhkumdur.

Qamət müəllim yaxşı olar misalı gələn dəfə Yaponiyadan çəksin. Amerikanı sındırmışıq.

Qaldı mənim bu fırlanma mövzusuna şəxsi movqeyim, onu başlıqda yazmışam.

# Qarabağ üçün "Normand formatı" - Minsk üçlüyü, üstəgəl...

**Ukrayna böhranına dair Minskdə "Normand dördlüyü" çərçivəsində aparılan və yazılı anlaşma ilə başa çatan danışıqlar Qarabağ ixtilafının həll perspektivi üçün də əhəmiyyətli sayıla bilər. Özü də nəticələr Azərbaycanın maraqları baxımından yetərincə önəmli hesab olunmalıdır. Niyə?**

## Problem ətrafında beynəlxalq situasiya hər an dəyişə bilər; Avropa Birliyi rəsmisinin qondarma "DQR"-in "xarici işlər naziri" ilə görüşünə Bakının zəif reaksiyası təsadüfdümü, Azərbaycan separatçı qurumla birbaşa danışıqlara sövq edilə bilər?..



Birincisi, ona görə ki, bu danışıqlarla Rusiyanın postsovet məkanında etnik-ərazi konfliktlərin əsas memarı və körükləyicisi olduğu isbatlandı. Donbas separatçıları, qondarma DXR və LXR liderləri deyil, məhz Moskvanın Minsk danışıqlarında tərəf kimi iştirak eləməsi ilə rəsmən təsdiqləndi. Əslində buna Kreml məcbur idi, çünki belə bir imperativ qarşısında qoyulmuşdu. Minsk anlaşması reallaşsa da, reallaşmasa bu mühüm qənaət artıq dəyişməyəcək.

Deməli, Qarabağ məsələsində də hansısa "öz müqəddəratı təyin etmə" haqqından, yaxud Ermənistanın mifik hərbi qələbəsindən söz açmağa yer qalmır - Qarabağ problemi, sadəcə olaraq, rusların birbaşa dəstəyi ilə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal faktından ibarətdir. Belədisə, səmərəsiz Minsk Qrupu əvəzinə Dağlıq Qarabağa dair də bir özəl "Normand formatı" hazırlamağın vaxtı çatmayıbmı? Məsələn, Minsk həmsədrləri üçlüyü (ABŞ, Rusiya, Fransa), üstəgəl Türkiyə, Almaniya, Azərbaycan və Ermənistan formatında...

Hər halda, rəsmi Bakı onun mövqeyini gücləndirən yeni tutarqadan işğalçı erməniləre qarşı ciddi şəkildə yararlana bilər, əgər təbii ki, strateji məsələlərdə, o cümlədən münaqişələrə yanaşmada Qərbin yanında tərəddüdsüz yer alarsa, daha bir yandan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib, o biri yandan AŞPA-da açıq-aşkar Rusiyanın böyründə durmaqla nala-mıxa vurmasa, universal dəyərlərə, təməl insan haqlarına sayğısızlıq məsələsində əndazəni aşmasa.

Əks halda, effekt ciddi olmayacaq, səsimiz əvvəlki tək zəif eşidiləcək, Qarabağ həqiqətləri haqda tələblərimiz əvvəlki kimi dişsiz olacaq. Başqa sözlə, Azərbaycan Ukraynada bütünlüklə faş olan Rusiyanın qorxusundan ayrı bir "hava çalarsa", Qərb də həmin havaya uyğun bizə və əsas problemimizə yanaşmanı davam etdirəcək. Onsuz da bu yanaşma çoxdandır ürəyimizcə deyil.

Ələlxüsus, "Madrid prinsipləri" ilə boynumuza qoyulmaq üzrə olan və "öz müqəddəratını təyinetmə hüququ"ndan qaynaqlanan referendum məsələsi milli maraqlarımızla, ərazi bütövlüyümüzlə uzlaşmış sayıla bilməz. Unutmayaq ki, Qərb belə bir təklifi nə Abxaziya, Cənubi Osetiya və Dnestryanı problemlərin həllində, nə də Krım və Donbas məsələlərində ağlının ucundan da keçirmir, Gürcüstanın, Moldovanın və Ukraynanın ərazi bütövlüyünü birmənalı şəkildə müdafiə elədiyini bəyanlayır.

Müvafiq surətdə həmin bölgələrin separatçı liderlərinə münasibət də ortadadır: onların ABŞ və Avropa Birliyi ölkələrinə çıxışları çoxdan yasalanıb, bank hesabları bağlanıb. Təkcə Dağlıq Qarabağın separatçı liderləri istisnadır, onlara nəinki Qərbdə qucaq açılır, üstəlik, maddi yardımlar göstərilir. Təsadüfmü? Təkcə Qərb suçlumu bunda? Hər nəsə, Bakı bu realllığın davamlı olmaması üçün əlindən gələni etməli, Ukrayna ilə bağlı işə düşən yeni Minsk prosesindən yararlanmağı bacarmalıdır.

Diqqət edilir yəqin ki, Donbas separatçıları yalnız "Təmas qrupu" çərçivəsində və ATƏT nümayəndəsi ilə, sırf Ukraynanın ərazi bütövlüyü formatında Kiyev rəsmiləri ilə görüşlər keçirir. "Təmas qrupu"nun isə elə bir sənədi olmayıb ki, orada Ukraynanın ərazi bütövlüyü, suverenliyi qırmızı xətlə keçməsin. Sonuncu 17 saatlıq anlaşma memorandumu da o qəbildəndir.

Şübhə yox ki, Bakı da Dağlıq Qarabağ erməniləri ilə öz vətəndaşları kimi, münaqişədə maraqlı tərəf olaraq və ATƏT-in Minsk Qrupunun mandatı əsasında bir araya gələ bilər. Burda qəbahət yoxdur. Qoy olsun lap ATƏT, Avropa Birliyi (AB) nümayəndəsi ilə, yaxud hansısa Qarabağ "Təmas qrupu" formatında. Bu və yalnız bu.

Ancaq əgər ATƏT və yaxud AB rəsmisi separatçı rejimin reklamına işləyən bir formada, onu müstəqil qurum kimi, münaqişə tərəfi olaraq tanıyırmış kimi görüşürsə, - hansı ki, təkrar edirik, GUAM-ın digər üç ölkəsi olan Ukrayna, Gürcüstan və Moldovaya münasibətdə belə bir reveransı görmürük, - bu, artıq Azərbaycan üçün təhdid siqnaldı, çünki Qarabağda separatizmi şirnikləndirməklə yanaşı, işğal faktını, Ermənistanın ölkəmizə qarşı ərazi iddiası məsələsini arxa plana keçirmək anlamına gəlir.

Bu xüsusda çox qəribədir ki, ötən həftə AB-nin Güney Qafqaz üzrə nümayəndəsi Herbert Zalberin İrəvanda qondarma qurumun "xarici işlər naziri" Karen Mirzəyanla görüşünə rəsmi Bakı gözlənildiyindən olduqca yumşaq reaksiya verdi. Bu da müəyyən əndişə yaradır. Çünki Qərbin yaxın perspektivdə Bakını Qarabağ separatçıları ilə eyni masa arxasında, müstəqil tərəflər olaraq oturtmağa yönəlik nəbz yoxlanışı, Azərbaycan ictimai rəyini hazırlamaq təəssüratı yaradır.

Azərbaycana qarşı de-mars xarakteri daşıyan belə bir addım xüsusilə də Donbas danışıqları fonunda, MDB məkanındakı separatçıların təqib edildiyi dövrdə yaxşı ələmət hesab oluna bilməz - Azərbaycan XİN yetkilisi bunu normal təqdim eləsə də.

❑ **Analitik xidmət**

# Ermənistanda müxalifətçilərin kütləvi həbsi başladı

**Ermənistan polisi müxalif Çiçəklənən Ermənistan Partiyasının üzvlərini həbs etməyə başlayıb. Partiyanın paytaxt İrəvandakı Nor-Ork inzibati dairəsi üzrə ofisinin rəhbəri Artur Mamoyan fevralın 17-nə keçən gecə saxlanılıb.**

Virtualaz.org saytı xəbər verir ki, bunu "Azatutyun" radiosuna açıqlamasında partiyanın parlament fraksiyasının üzvü Elinar Vardanyan deyib. E.Vardanyanın sözlərinə görə, partiyanın Malatiya-Sebastiya və Arabkir inzibati dairələrindəki fəalları arasında da həbs edilənlər var.

"Son iki həftə baş verən hadisələrdən sonra məndə belə təəssürat yaranıb ki, Ermənistan 1937-ci ilə qaytarılıb. O illərdə həyata keçirilən repressiv metodlar bu gün də aktualdır" deyə, E.Vardanyan bildirib.

Deputatın sözlərinə görə, müxalifətçilərə hücumlar və kütləvi həbslər prezident Sərkisyanın məlum göstərişindən sonra başlayıb.

Qeyd edək ki, Serj Sərkisyan fevralın 12-də hakim Respublika Partiyasının iclasında çıxış edərək Çiçəklənən Ermənistan Partiyasının lideri, oliqarx Qaqik Tsarukyanı kəskin tənqid etmiş və onu Təhlükəsizlik Şurasının üzvlüyündən qovmuşdu. Demişdi ki, "Təhlükəsizlik Şurası ağlına gələndə, istədiyin vaxt gəlib-gedəcəyin yer, kinoteatr deyil".

Sərkisyan Tsarukyanın savadsızlığını da ələ salaraq Tsarukyana qoşulan ayamanı da yada salmış, ona "Dodu Qaqo" ("Tupoy Qaqo" və ya "Kütbeyin Qaqo") deyildiyini xatırlatmışdı. Habelə Tsarukyanın vergi cinayətlərinə də eyham vurmuşdu.



Serj Sərkisyan

YENİ MÜSAVAT
N 37 (6065) 18 fevral 2015

# "Azərbaycanda inqilabdan söhbət gedə bilməz"

## Viktoriya Nuland Bakı səfərində mühüm bəyanatlar verdi; ABŞ-la Azərbaycan arasında ikitərəfli strukturun fəaliyyəti barədə anlaşma əldə olundu

**Xəbər verildiyi kimi, ABŞ dövlət katibinin müavini Viktoriya Nuland dekabrın 16-da axşam saatlarında Bakıya gəlib. Onu Bakı hava limanında ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta qarşılayıb. Amerikalı diplomat Bakıda prezident İlham Əliyev və XİN rəhbəri Elmar Məmmədyarovla görüşüb. Danışıqların yekunları ilə bağlı ABŞ səfirliyində keçirilən brifinqdə diplomat təmaslardan razılığını ifadə edib. "Prezident Əliyev və nazir Məmmədyarovla çox yaxşı, məzmunlu və səmimi görüşlərimiz oldu.**



Bu görüşlərdə mənim əsas mesajım o oldu ki, biz Azərbaycanla 20 illik əməkdaşlığı yüksək qiymətləndiririk. Biz onu daha da güclü, daha demokratik və müstəqil görmək istəyirik, təhlükəsizlik, iqtisadiyyat, energetika sahəsində əməkdaşlığı davam etdirmək istəyirik, demokratiya sahəsini mümkün qədər daha da gücləndirmək istəyirik" deyə, Nuland bildirib. O, əməkdaşlığın digər prioritetləri arasında ekstremizmə və terrorizmə qarşı mübarizəni göstərib. Bu çərçivədə ABŞ Azərbaycanın güc strukturlarına dəstəyini davam etdirəcək. "Biz həmçinin qeyri-neft sektorunun və iqtisadi əlaqələrin inkişafı məqsədilə Azərbaycan iqtisadiyyatının diversifikasiyasından danışdıq. Bu gün prezident korrupsiyaya qarşı mübarizədə qətiyyətli olduğunu bildirdi. Çünki korrupsiya demokratiyanın qatilidir və xarici investisiyaların qarşısını alır. Biz bu istiqamətdə birgə səyləri davam etdirməyə razılıq verdik" deyə, Nuland qeyd edib.

**Virtualaz.org saytı "İnterfaks"a istinadən xəbər verir ki, Nuland Birləşmiş Ştatlarla Azərbaycan arasında yeni danışıqlar formatına dair razılıq əldə olunduğunu açıqlayıb.** "Bu gün bizə effektiv strukturlaşdırılmış dialoq lazımdır. Mən çox şadam ki, prezident İlham Əliyev bu cür dialoq formatının yaradılmasına razılıq verdi" deyə, diplomat bildirib. Diplomat əlavə edib ki, bu, ABŞ-la Azərbaycan arasında ikitərəfli struktur olacaq və Azərbaycanla Avropa Şurası arasında analoji təşəbbüslə paralel işləyəcək.

**Səfər çərçivəsində həmsədrlərlə də görüş baş tutub. Danışıqlarda Qarabağ nizamlanması məsələsinə də toxunulub.** "Biz münaqişə zonasında zorakılığın artmasından çox narahatıq və mən bu mövzunu Ermənistanda da davam etdirəcəm. Çünki vəziyyətə görə hər iki tərəf məsuliyyət daşıyır" deyə, Nuland vurğulayıb. Cəbhə xəttində gərginliklə bağlı sualın cavabında dövlət katibinin köməkçisi deyib ki, o, Bakıda atəşkəsə əməl olunmasının vacibliyi barədə öz fikrini bildirib və bu fikri Ermənistanda da bildirəcək. Azərbaycanlı girovlara gəlincə, Nuland deyib ki, onlar humanitar baxımdan qaytarılmalıdır və bu məsələni sabah İrəvanda qaldıracaq.

**V.Nuland demokratiya məsələlərinin də danışıqların predmeti olduğunu bildirib:** "Biz, əlbəttə, demokratiya və insan hüquqlarından da danışdıq. Hökumətlə vətəndaş cəmiyyəti arasında açıq, yaxşı əlaqələr ölkənin gələcəyi üçün çox vacibdir və ABŞ bunu dəstəkləyir. Bu gün biz ABŞ-ın bu məsələ ilə bağlı narahatlığından, insan haqlarının vəziyyəti və KİV problemlərindən də danışdıq. Bu mövzuda məsləhətləşmələri davam etdirmək, vətəndaş cəmiyyəti və demokratiya mövzusunda Amerika-Azərbaycan dialoqunu gücləndirmək barədə razılığa gəldik. Söhbət Avropa Şurası strukturları ilə paralel işləyəcək ikitərəfli qurumun yaradılmasından gedir". O əlavə edib ki, Fulbrayt, Ayreks, Fleks proqramları çərçivəsində şagird mübadiləsinin gücləndirilməsi barədə razılıq var.

Viktoriya Nuland səfər zamanı vətəndaş cəmiyyətinin təmsilçilərinə də vaxt ayırıb - 20 dəqiqə. Nuland jurnalist Elçin Şıxlı, Marşal Fondunun təmsilçisi Mehriban Rəhimli və NİDA Hərəkatından Turqut Qəmbərlə görüşüb.

Mehriban Rəhimli Azadlıq-Radiosuna deyib ki, görüşdə vətəndaş toplumunun problemlərindən danışıblar, ancaq bu haqda mətbuata geniş məlumat verə bilməz.

**Elçin Şıxlı AzadlıqRadiosuna görüş haqda bunları söyləyib:** "O, prezidentlə görüşdən sonra bizimlə danışdı. Xüsusi müzakirə olmadı. Vaxt çox az idi. Ancaq Viktoriya Nuland dedi ki, prezidentlə insan haqları, demokratiya məsələlərini, regional problemləri müzakirə ediblər. Təəssürat budur ki, bizimlə işləmək istəyirlər, işləyəcəklər də yəqin..."



### Nuland Elçin Şıxlı, Marşal Fondunun təmsilçisi Mehriban Rəhimli və NİDA Hərəkatından Turqut Qəmbərlə görüşüb

**"Turan"ın "Azərbaycanda "rəngli inqilab"ların hazırlanması ilə bağlı Vaşinqtonun ünvanına səslənən ittihamları ABŞ necə qiymətləndirir" sualının cavabında Nuland deyib ki, inqilab o zaman mümkündür ki, hökumət, vətəndaş cəmiyyəti və sadə insanlar arasında dialoq olmasın. Qapılar bağlıdır və hakimiyyət problemləri eşitmir, onları müzakirə etmək istəmir.** "Məhz bundan ötrü biz hakimiyyətlə vətəndaş cəmiyyəti arasında güclü dialoqa tərəfdarıq ki, mövcud problemlər həllini tapsın", - deyə, Nuland bildirib. Nuland qeyd edib ki, bu cür vəziyyətdə inqilaba zərurət ola bilməz: "Rəngli inqilab o vaxt ola bilər ki, hökumətlə vətəndaş cəmiyyəti arasında uçurumlar olsun. Azərbaycanda inqilabdan söhbət gedə bilməz".

**V.Nuland Azərbaycanda siyasi qüvvələrlə hakimiyyət arasında dialoqun bərpasını da alqışlayıb. Onun sözlərinə görə, belə dialoq Azərbaycanın gələcəyi üçün çox mühümdür. Diplomat danışıqlar zamanı Azərbaycanda insan haqları məsələsinə də toxunulduğunu deyib:** "Dünyada ən güclü dövlət dövlətlə vətəndaşlar arasında açıq dialoqun olduğu dövlətdir".

**Diplomatın səfərini şərh edən "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, bir sıra məsələlər Amerikanı çoxdan narahat etdiyi üçün onların müzakirəsi qaçılmaz idi:** "Amerikanlar bu vəziyyəti, çətin durumu qabaqcadan görürdülər. Azərbaycan hökuməti isə bunu görmək istəmirdi. Yəni Amerikanın Azərbaycan hökumətinə islahatlar haqqında çağırışları demək olar ki, eşidilmirdi. İndi isə gərgin bir vəziyyət yaranıb. ABŞ üçün Azərbaycanda stabillik mühüm məsələdir və stabillik müəyyən islahatların aparılması üçün vacib zəmindir. Bizdə demək olar ki, stabillik pozulmağa başlayıb, bu, faktdır. Çünki böhran özü qeyri-stabil vəziyyət yaradır. Artıq hansısa xarici müdaxilələr və daxili siyasi qarşıdurmaların deyil, artıq daha çox iqtisadi-sosial amillərin təzahürüdür. Yəni qeyri-stabil iqtisadi durum narazılıqları artıracaq və cürbəcür problemləri ortaya çıxaracaq ki, bu da gətirib siyasi stabilliyi pozacaq, cəmiyyətdə gərginlik artmağa başlayacaq. Ona görə də münasibətlərdə prioritet olan stabillik problemi var. Burda da əsas problem Azərbaycanda gecikdirilmiş iqtisadi, siyasi islahatlardır. Ona görə də görüşlərdə bu məsələ gündəmdə çox ciddi yer tutacaq. Məncə, islahatlar mövzusu Azərbaycan - ABŞ danışıqlarında əsas olub".

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri isə şübhə etmir ki, danışıqlarda ABŞ təsisatlarının taleyi də müzakirə mövzusu olub:** "Viktoriya Nuland ABŞ xarici siyasətinin "ağır artilleriyası" sayılır. Məsələn, Nulandın sonuncu özünü göstərdiyi məkan Ukrayna, Maydan olub, bunu unutmayaq. Ümumiyyətlə, sərt xətt siyasətçilərindən, diplomatlarından sayılır. Bu səfər təbii ki, işgüzar səfərdir. Hər Cənubi Qafqaz ölkələrinə səfərin məhz Azərbaycandan başlamasında da müəyyən mesaj var. Demək, Vaşinqton üçün Azərbaycanla münasibətlərin aydınlaşdırılması daha önəmlidir. Çünki Tiflis və İrəvanla münasibətlərdən fərqli olaraq Bakı ilə münasibətlər aydın deyil. Hətta o dərəcədə aydın deyil ki, ABŞ-ın Azərbaycana gələn yeni səfirinin etimadnaməsini İlham Əliyev qəbul etmədi, o, ancaq xarici işlər nazirinin qəbulunda oldu. Bundan başqa, Konqresdə, arxasınca Milli Məclisdə olan dinləmələr, digər məqamlar artıq münasibətlərdə toplanıb qalmış məqamlardır ki, bunlara aydınlıq gətirmək lazımdır. Nulandın əsas missiyası da bundan ibarətdir. Azərbaycan-ABŞ münasibətlərinin bundan sonra hansı istiqamətdə gedəcəyi də bu danışıqlardan xeyli dərəcədə asılı olacaq".

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov isə deyir ki, son dövrlər ABŞ-dan müəyyən məsələlərlə əlaqədar nümayəndə heyətləri gəlir və son səfərə də bu prizmadan yanaşmaq lazımdır:** "Ümumilikdə bizim dövlətlərarası münasibətlər normaldır və bu münasibətlər də davam edir. Yəni hər hansı bir narahatlıq, nigarançılıq yoxdur. Bəzi qurumlar var ki, onlar dövlət maraqlarını ifadə etmir, ayrı-ayrı dairələrin, lobbilərin maraqlarını həyata keçirməkdən ötrü çalışır. Elə ABŞ-dakı son dinləmələrə də baxanda görürük ki, oradakı senator və konqresmenlərin hamısı Azərbaycanı strateji müttəfiq hesab edir. Amma QHT-ləri təmsil edənlər, yaxud Azərbaycanda marağı olan bir-iki ekspert, yaxud erməni lobbisinin maliyyələşdirdiyi şəxslər isə Azərbaycan əleyhinə hansısa çağırışlar edir ki, bu da bəlli məsələdir. Azərbaycanın inkişafını, ictimai-siyasi sabitliyini, keçiriləcək Avropa oyunlarını erməni lobbisinin gözü götürmür. Azərbaycanda da bəzi mətbuat orqanları və siyasi partiyalar o adamların fikirlərini Amerika dövlətinin fikri kimi cəmiyyətə sırımağa çalışır".

**S.Novruzov Azərbaycandakı Amerika təsisatlarının taleyinin necə olacağı haqda suala da cavab verdi:** "Artıq ABŞ-ın yeni səfiri Bakıdadır və fəaliyyətə başlayacaq. Ancaq Amerikanın o təşkilatları özləri burdan gedib, heç biri qovulmayıb. Sadəcə olaraq, həmin qurumların fəaliyyətinin düzgün istiqamətdə qurulması ilə əlaqədar mövqe bildirilib. Deyilib ki, başqa ölkələrdə necə fəaliyyət göstərirsinizsə, burda da eyni qaydada çalışın. Ancaq Azərbaycanda bunlara xüsusi status verilməyəcək. Onlar isə özlərini xüsusi statuslu təşkilatlar kimi apardılar. Hər bir məsələ məsləhətli şəkildə, razılaşma yolu ilə, qanunlar çərçivəsində həyata keçirilə bilər".

**Nuland Bakıda görüşlərini yekunlaşdırdıqdan sonra Gürcüstana yollanıb. Onun Tiflisdə rəsmilər, müxalifət liderləri və vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşləri nəzərdə tutulub.**

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 37 (6065) 18 fevral 2015

# "Lamiyə işi"nin yeni mübhəm səhifələri açılır...


Aslanov Vüqarın xalalarını da həbs etdirib


Öz evinə görə bələdiyyə ərazisini zəbt edib



Aslanov kəndə atasının adını qoyub

## Aslanovun bir ailənin 12 üzvünü həbs etdirməsinin müdhiş təfərrüatları...

### Vüqar Əliyevin atası və dayısı sensasion faktlar açıqladılar, Lamiyənin Ruslana vurduğu bıçağı necə və hardan əldə etdiyi üzə çıxdı; rayonda isə sabiq başçının keflənib mollanı məscidin minbərinə çıxarması və sahibkara zülmündən danışırlar

**Müxbirlərimiz Şəmkirin sabiq icra başçısı Aslan Aslanovun oğlu Ruslanın qətli işini yerindəcə araşdırıb. Ruslan Aslanovu öldürməkdə təqsirləndirilən Vüqar Əliyevin atası bu cinayəti bilib gizlətməkdə ittiham olunub. İbrahim İsmayılovun sözlərinə görə, ona qarşı irəli sürülən ittihamlar qondarma idi və ümumiyyətlə, həmin maddələrlə ittiham verilə bilməzdi.**

*(əvvəli ötən sayımızda)*

"Cinayət Məcəlləsində 307-ci maddənin sonunda xüsusi qeyd var. Orada yazılıb - arvadı, əri, övladları, valideynləri, qanunvericiliklə dairəsi müəyyən edilmiş digər yaxın qohumları tərəfindən hazırlanmış və ya törədilmiş cinayət barəsində xəbər verməyən şəxs bu məcəllənin 307-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət məsuliyyətinə cəlb edilə bilməz. Mənim işimdə isə belə olmadı. Maddəni mənə şamil etdilər. Guya oğlumun cinayətini bilib gedib polisə xəbər verməmişəm. 188-ci - torpaq üzərində mülkiyyət hüququnu pozma, 134-cü - öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə maddələri ilə isə həmin vaxt verilən amnistiya aktının təsiri altına düşürdü. Bunu da mənə şamil etmədilər. Çünki Aslan Aslanov mənim həbs olunmağımı sifariş vermişdi. Dövlətin qanunları bir kənara qaldı, Aslan Aslanovun sifarişi ilə mənə iş verdilər" deyə, İ.İsmayılov qeyd edir.

#### "Bıçağı Lamiyəgildə qoymuşdu"

**O, oğlunun həbsindən sonra Vüqarın tanışı Arzu Sadıxovun tutulmasına da diqqət çəkir:** "Arzu Gəncə İstintaq Təcridxanasında saxlanılırdı. Nizami adlı əməliyyatçı onu döyüb tələb etmişdi ki, qətldə istifadə edilən bıçağı Vüqara deyil, mənə satdığını ifadəsində qeyd eləsin. Əslində isə o, həmin bıçağı hadisədən 2 ay əvvəl Vüqara satmışdı. Arzu Vüqarın tanışı idi. O bilirdi ki, Vüqar maşınını satıb və heyvan kəsib satmaqla məşğul olmaq istəyir. Bu məqsədlə bıçağı satmışdı. İri bir bıçaq idi. Mən həmin bıçağı görəndə Vüqara dedim ki, bu boyda bıçağı nə edirsən, rədd elə. O da götürüb Lamiyəgilin evinə qoymuşdu. Hadisə zamanı Lamiyə bıçağı mantosunun altına qoyub aparmışdı...

Arzudan o ifadəni ona görə almaq istəyirdilər ki, məni qətlin sifarişçisi kimi təqdim edə bilsinlər. Guya bıçağı mən Vüqara vermişəm ki, get, Aslanın oğlu Ruslanı öldür. Bu sifarişi də ona görə vermişəm ki, guya Aslan mənə pay torpağı verməyib.

Halbuki mən pay torpağı almışdım. Məhkəmədə hakim Əli Seyfəliyevə pay torpağımın sənədini də verdim. Lakin orada dediklərimə qulaq asan olmadı. Bu adamlar bizi məhkum etmək sifarişini yerinə yetirməyə çalışırdılar və buna nail oldular".


Vüqarın dayısı şərlənib tutulmasından danışır


İcra başçısının yaşadığı ev

#### "Guya 2 bıçağı Lamiyə, 16 bıçağı Vüqar vurub"

**İ.İsmayılov deyir ki, onu Şəmkir polisində saxlayarkən L.Quliyevanı da ora gətiriblər:** "Məni Şəmkir polisində 6-cı kamerada saxlayırdılar, 15 sutkalıq idim. Bir gün saxlanıldığım kameranın pəncərəsindən gördüm ki, Lamiyəni ora gətirdilər. Qıza yanındakı müstəntiq taxta xəncər verdi və polisin həyətində saxlanan Ruslanın maşınında oturdub istintaq eksperimenti keçirdilər. Ruslana oxşayan bir nəfəri sürücü sükanına oturtdular.

Lamiyəni arxa oturacaqda əyləşdirdilər. Lamiyə mantosunun altına qoyduğu taxta xəncərlə qabaq oturacaqda olan şəxsə necə xəsarət yetirdiyini göstərdi. Lamiyə Ruslana 2 bıçaq vurduğunu deyir.

Guya 2 bıçağı Lamiyə, 16 bıçağı isə Vüqar vurub.

İşi qəsdən ağırlaşdırdılar. Məni mayın 12-də həbs etmişdilər. Bir gün əvvəl istintaq qrupunun rəhbəri Valeh Quliyev dedi ki, Lamiyə ilə Vüqar Ruslana 11 bıçaq vurublar. Amma məhkəmədə 18 bıçaq vurulduğunu deyirdilər. Guya meyiti təhqir ediblər".

**Vüqarın atası danışır ki, 6 may 2003-cü il tarixdə amnistiya qərarına əsasən 228.4 maddəsi ilə həbs edilən Arzu Sadıxov 1 illik cəzadan azad edilib:** "Amma mən həbs edildim. Halbuki tutulduğum maddələrdən ikisi - 188 və 134-cü maddə amnistiya düşmüşdü, 1 maddə 307.3-cü maddəsi isə mənə şamil oluna bilməzdi. 4 il müddətinə azadlıqdan məhrum edildim".

#### "Prokuror Lamiyəyə dedi ki, namus bilirsən nədir, o da..."

**İ.İsmayılov tələb edir ki, işə yenidən apelyasiya instansiyasında baxılsın:** "Prezident İlham Əliyevdən xahiş edirəm ki, bu işə yenidən baxılması üçün göstəriş versin. Bizim ailəyə qarşı qanunsuzluqlar, haqsızlıqlar bu gün də araşdırılmamış qalıb.

O dövrdə verdiyimiz apelyasiya şikayətinə Hərbi Məhkəmənin hakimi Şahin Yusifov Bayıldakı İstintaq Təcridxanasında, adı açıq olan, lakin qapalı şəraitdə keçən məhkəmədə baxıb. İşə ona görə təcridxanada baxdılar ki, jurnalistlər məhkəmədə iştirak etməsin və saxtakarlıqları ictimailəşməsin. 13 dəqiqəyə apelyasiya şikayətimizə baxdılar və Ağır Cinayətlər Məhkəməsinin hakimi Əli Seyfəliyevin barəmizdəki qondarma hökmü qüvvəsində qaldı".

**İ.İsmayılov deyir ki, Lamiyə apelyasiya şikayətinə baxılarkən bu işin onun namusuna toxunulduğuna görə baş verdiyini bildirib:** "Prokuror Qurbanəli Məmmədov isə ona dedi ki, "sən namus nə olduğunu bilirsən? Lamiyə ona ağır sözlər dedi, özünün namussuz olduğunu dedi. Dövlət aktı əlimdədir və mən hansı torpağa görə Aslan Aslanova təzyiq göstərə bilərdim?

Bu gün də mənə məlum deyil. Aslan Aslanov bu işin mahiyyətini ona görə dəyişdirmək istəyirdi ki, məsələ siyasiləşsin. Guya o, xidməti vəzifəsini yerinə yetirərkən onun oğlunu öldürüblər".

#### Vüqarın həbs edilən dayısı: "Aslanov 12 nəfəri tutdurub sakitləşdi"

**Aslanovun həbs etdirdiyi şəxslər sırasında Vüqarın dayısı Ədalət Məmmədov da olub. Onu narkotik ittihamı ilə saxlayıblar. Ə.Məmmədov deyir ki, Şəmkirdən Gəncə polisinə aparılıb. İstintaq şöbəsinin müstəntiqi Fəxrəddin Şirəliyev ittiham aktında yazıb ki, Ə.Məmmədov 7,1 qram satış məqsədi ilə narkotik maddə əldə edib. Sonra İlqar Bağırov adlı sakinə Şəmkir dairəsində 20 min manata satıb və alan şəxs könüllü şəkildə narkotiki polisə təqdim edib.** "Məni 2003-cü ilin sentyabrında tutdular. Gəncə polisinə apardılar. Gecə 3-ə kimi dindirdilər və sonra gecə yarısı Bakıya Baş Cinayətkarlıqla Mübarizə İdarəsinə apardılar. Məni ora Rəfaellə Məhəmməd adlı polislər aparmışdı.

Məni orada qoyub qaçdılar. Orada isə dedilər ki, bu adamın günahı yoxdur. Ancaq 234.2 maddəsi ilə cinayət işi açıldı. Nərimanov Rayon Məhkəməsinə apardılar. 48 saat araşdırma ilə bağlı həbs verildi. Məhkəmə isə sanksiya vermədi.


Vüqar Əliyev

Axırda 290-cı maddə ilə buraxdılar. Bir müddət sonra təzədən Bakıda cinayət işi açıldı. 2004-cü ilin yanvarında 2 il şərti cəza kəsildi. Mən Vüqarın dayısı olduğum üçün saxta ittihamla iş açıldı. Mən heç vaxt narkotik istifadəçisi olmamışam. Heç siqaret çəkməmişəm".

**Ə.Məmmədovun sözlərinə görə, bütün rayon məhkəmələri işə baxmaqdan imtina edib:** "Bu, tarix idi. Özləri də gördülər ki, günahsızam. Narkotik satışı ilə həbs edilən adam praktikada elə hal olmayıb ki, şərti cəza ilə azadlığa çıxsın. Məhkəmə mənim şərləndiyimi bilirdi. Aslanov bu işlərin başında dayanırdı. Əvvəlcə işi Şəmkir məhkəməsinə göndərdilər, hakim baxmadı. Göndərdilər Tovuza, orada da baxmadılar. Sonra Kəpəz məhkəməsinə, oradan Kəlbəcər məhkəməsinə. Kəlbəcər məhkəməsi sonda Naftalan məhkəməsinə göndərdi.

Təsəvvür edin ki, orada 6 ay iş getdi. Dedilər, bu işlə səni həbs edə bilmərik. Naftalan məhkəməsinin hakimi Maşallah Şirvanov dedi ki, heç vaxt belə hal olmayıb. Bu günə kimi 234.2 maddəsi ilə adam hələ buraxılmayıb. Sadəcə, anam, ailə üzvlərimiz bu həbslərdən sonra Prezident Aparatının qabağına əldə plakatla yürüş etmişdi, orda nümayəndə onları qarşılamışdı. Oradan zəng gələndən sonra məni azad etdilər. Ondan sonra Aslanov sakitləşdi, artıq 12 nəfəri həbs etdirmişdi".

***

Vüqarın ailəsi başına gələn müsibətləri danışdıqdan sonra Lamiyənin ata evinə getdik. Anası Kifayət Quliyeva və xalası oğlu Fariz Yusibov "Yeni Müsavat"a Aslanovla oğlunun etdiklərindən danışıblar. Bu barədə növbəti reportajda oxuya biləcəksiniz.

Bir nüansı deyək ki, Şəmkirdə hələ də A.Aslanov xofu var. İnsanlar onun etdiklərini unutmayıblar və danışarkən sözlərini ehtiyatla ifadə edirlər. Çünki sabiq başçının hələ də müəyyən dayaqları olduğunu düşünürlər. Məsələn, Aslanov kefli olduğu vaxtlarda rayon məscidində Əli adlı mollanı məscidə gələrək minbərə çıxardıb, azan oxudarmış. Bu haqda hələ də Şəmkirdə danışırlar. Bundan əlavə, Aslanov bələdiyyə binasının qarşısında ev tikdirib, inzibati binaya aid sahənin bir hissəsini də zəbt edib.

A.Aslanov Nizami kəndinin də adını dəyişərək atası Əli və babası Yaqubun adını qoyub. Hazırda bu kənd Əli Yaqublu adlanır. Rayonda bazarın sahibi Elpərəst Həsənlinin tutulması və işgəncələr verilməsi də Şəmkirdə danışılan mövzudur. Sahibkarın yaşadıqlarını da sonrakı yazılarda təqdim edəcəyik.

**ardı var...**

❑ "Yeni Müsavat"ın Reportyor Qrupu
Şəmkir

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT

N 37 (6065) 18 fevral 2015




# Fəallaşan vasitəçilər və yeni təkliflər...

## Azərbaycanlı politoloq Azərbaycan-Ermənistan sərhədində "Sülh evi"nin tikilməsini təklif edir; ATƏT PA-nın qış sessiyası ərəfəsində həmsədr ölkələrin aktivləşməsi təsadüfdürmü?

**Qarabağ münaqişəsinin nizamlanması, danışıqların nəticə verməsi, sülh sazişinin imzalanması üçün beynəlxalq qurumların, həmsədrlərin hərəkətə keçdiyi müşahidə olunur. Ekspertlər bunu daha çox iki məsələ ilə əlaqələndirirlər. Yanvarın sonlarında ATƏT PA-nın Komitə sədri, Büro üzvü, millət vəkili Azay Quliyev açıqlama verdi ki, ATƏT PA-nın fevralın ortalarında Vyanada keçiriləcək qış sessiyasında həm Almaniyanın, həm də Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Minsk həll prosesinə yaxından cəlb edilməsi və hazırda 3 ölkədən ibarət həmsədrlik institutunun dəyişdirilərək "5-lik Sədrlər Şurası" (SŞ) ilə əvəz olunması haqqında məsələ qaldırmağı planlaşdırır.**

Təbii ki, bu, Azərbaycan dövlətinin mövqeyi kimi ifadə olunacaq. Artıq qurumun qış sessiyası başlayır və Azərbaycan nümayəndə heyəti bu gün Vyanaya yollanır. Onu da nəzərə çatdıraq ki, Azay Quliyev ATƏT Parlament Assambleyasının (PA) qış sessiyasında sədr müavini olduğu Siyasi məsələlər və təhlükəsizlik komitəsinin iclasını aparacaq...

Ekspertlər hesab edir ki, həmsədrlik institutunun fəaliyyətinin son 20 ildə heç bir nəticə verməməsi səbəbindən Azərbaycanın "5-lik Sədrlər Şurası" təklifini irəli sürmək üçün kifayət qədər əsasları var. Həmçinin Qarabağ məsələsində obyektiv mövqe tutmağa çalışmış Almaniyanın və daim yanımızda qardaş Türkiyənin SŞ-yə gətirilməsinin Qarabağ münaqişəsinin ədalətli həllinə mühüm təsir göstərəcəyi qeyd olunur. Ancaq təbii ki, belə bir format kimlərisə, ən azı Fransa və Rusiyanı narahat etməyə bilməzdi...

Görünür, hazırda prosesdə iştirak edən tərəflər Vyanada sessiyanın başlaması ərəfəsində narahatdırlar, bəlli təklifin gündəmə gəlməsi beynəlxalq təşkilatları, həmsədrləri hərəkətə gəlməyə vadar edib. Yəni onlar nizamlanma prosesini "5-lik Sədrlər Şurası"na ehtiyac olmadan da həyata keçirə biləcəklərini, danışıqları bərpa etməkdə "aciz" olmadıqlarını göstərməyə cəhd edirlər...

İkinci amil kimi isə qeyd olunur ki, təmas xəttində vəziyyətin 2015-ci ilin ilk günlərindən günbəgün gərginləşməsi, müharibənin alovlanma təhlükəsinin artması, ermənilərin təxribatları, sülh danışıqlarının son mərhələsində də pozuculuq etməsi, bunların fonunda isə Azərbaycanın səbrinin tükənməsi və müharibə variantını istisna etməməsi beynəlxalq qurumları hərəkətə keçməyə vadar edib.

Yeri gəlmişkən, həmsədrlərin, ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nulandın regionda olduğu bir vaxtda da ermənilər atəşkəsi pozmaqda davam ediblər.

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 43 dəfə pozub...

Bu, həm də dünyaya bir sıqnaldır. Azərbaycan-Ermənistan müharibəsinin nizamlanmasında maraqlı güclərin təmsilçiləri də bunu müşahidə edirlər.

**Yeri gəlmişkən, Viktoriya Nuland Bakıda keçirdiyi brifinqdə münaqişə və onun detalları ilə bağlı maraqlı açıqlamalar verib.** "Ermənistanda saxlanılan azərbaycanlı girovlar qaytarılmalıdır". "Trend" xəbər verir ki, bunu çərşənbə axşamı Bakıda keçirilən mətbuat konfransında ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nuland bildirib.

**Viktoriya Nuland qeyd edib ki, bu, humanitar addım kimi həyata keçirilməlidir:** "Mən bu mövqeni sabah Yerevanda səsləndirəcəyəm".

O, həmçinin qeyd edib ki, ABŞ son vaxtlar Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində vəziyyətin gərginləşməsindən narahatdır.

**ABŞ dövlət katibinin köməkçisi qeyd edib:** "Biz zorakılığa son qoyulmasını istərdik, biz tərəflərin masa arxasına qayıtmasını istəyirik. Bu prosesi dəstəkləmək istəyirik".

Qarabağ məsələsi ilə bağlı ABŞ-la yanaşı, Rusiyanın da təəccüblü şəkildə fəallaşdığı görünür. Sanki Kreml bölgədə öz nüfuzunu göstərmək üçün nizamlanma prosesində önə çıxmaq istəyir.

"Qarabağ məsələsini Birləşmiş Ştatların iştirakı olmadan həll etmək istəyir". ANS PRESS-in məlumatına görə, bu, Rusiya prezidentinin etibarlı şəxsi, Rusiya Federasiyasının İctimai Palatasının üzvü, siyasi analitik **Sergey Markovun** Bakıda keçirdiyi mətbuat konfransında dediklərindən anlaşılıb. Markov Rusiyanın Ermənistanla Azərbaycan arasında əldə ediləcək böyük tarixi güzəştdə oynadığı roldan danışıb və bunun ATƏT-in Minsk Qrupunun çərçivəsindən kənarda olacağını ehtimal edib: "Bu təşkilatın fəaliyyətində Amerika maraqları boğaza qədərdir".

**Markovun dediyindən belə başa düşülür ki, Rusiya Qarabağ məsələsində Azərbaycana indiyə kimi heç zaman edilməmiş güzəştlə müraciət edəcək.** "Azərbaycan - Rusiya münasibətləri hazırda ən yaxşı dövrünü yaşayır. Qarabağ münaqişəsində müvəqqəti tarixi güzəşt üçün əsas yaranıb. Hazırda durum prinsipcə fərqlidir. Azərbaycan ordusu güclüdür, ölkənin iqtisadiyyatı güclənib. Erməni cəmiyyəti Qarabağ münaqişəsinin yaratdığı blokadadan yorulub. Ermənistan Qarabağ ətrafında yeddi rayonu azad etməklə blokadadan çıxır, cəbhə xəttində gərginlik aşağı düşür. Əminəm ki, artıq bu istiqamətdə danışıqlar gedir", - deyə Markov vurğulayır.

Göründüyü kimi, Rusiya Qarabağ məsələsində Azərbaycana böyük güzəştlər vəd edir və bu, ATƏT-in Minsk Qrupunun çərçivəsində Moskvanın ən böyük rəqibi olan Ağ Evi də hərəkətə keçirib. Görünür, ABŞ dövlət katibinin müavini Viktoriya Nulandın Bakıya səfəri də məhz bununla bağlıdır. Postsovet məkanını çox yaxşı tanıyan xanım siyasətçi, böyük ehtimalla, münaqişənin həlli məsələsində Rusiyanı arxa plana atmaq üçün Azərbaycana daha güzəştli təkliflər etməlidir.

***

**"Angela Merkel-Fransua Oland tandemi Dağlıq Qarabağ tənzimlənməsini başa çatdıra bilər". Bu açıqlamanı isə yerli politoloq Mübariz Əhmədoğlu verib. O, keçirdiyi mətbuat konfransında deyib:**

"Almaniyanın federal kansleri Angela Merkel və Fransanın prezidenti Fransua Olland Ukrayna tənzimlənməsində birdən-birə aktivləşdilər. Qısa müddət ərzində Kiyevdə və Moskvada görüşlər keçirildilər. Ukrayna probleminin həllində Avropanın 2 aparıcı dövlətinin aktivliyi ABŞ-ın narazılığına səbəb oldu. ABŞ Almaniya və Fransanı Ukrayna tənzimlənməsində transatlantik mövqedən uzaqlaşmaqda ittiham etdi". (Trend)

**Politoloq qeyd edib ki, ABŞ üçün Ukrayna məsələsində müharibə variantı da gündəlikdədir. Onun fikrincə, İraq, Əfqanıstan, Liviya xaraba vəziyyətə düşdükdən sonra daha əlavə bir dövlətin də ABŞ-ın iştirakı ilə xaraba vəziyyətə düşməsi ABŞ-da əlavə neqativ hisslər yaratmayacaq:**

"Amma Əfqanıstan, İraq, Liviya və s. dövlətlərdən fərqli olaraq, Ukrayna Avropa ərazisindədir. Ukraynadakı müharibə, sosial- iqtisadi problemlər hökmən Avropanın digər dövlətləri üçün də problem yaradacaqdır. Bu, ABŞ-ın vecinə deyil. Amma Almaniya və Fransa isə hadisələrin belə inkişaf perspektivindən qorxurlar. Ona görə A.Merkel dərhal ABŞ-a səfər etdi. ABŞ-ın vitse- prezidenti və dövlət katibi ilə Münhendə razılaşdıra bilmədiyi məsələni prezident Barak Obama ilə müzakirə etdi. Almaniyanın federal kansleri A.Merkelin cəsarəti, qətiyyəti və enerjisi ortalıqdadır. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi də məhz belə adam tələb edir. A.Merkel-F.Olland tandemi Dağlıq Qarabağ tənzimlənməsində yeni keyfiyyət vəziyyəti yarada bilər... Almaniya və Fransa Ukraynanın ərazi bütövlüyü ilə yanaşı, Azərbaycanın da ərazi bütövlüyünü dəstəkləyirlər. Bu, Almaniyanın son dövrdəki mövqeyində daha qabarıq şəkildə görünür. A.Merkel-F.Olland tandeminin Ukraynadakı sülhyaratma missiyası uğurla nəticələndi. Bu 2 liderin fəaliyyəti Ukrayna probleminin həllində lazımınca qiymətləndirilmədir".

**Politoloq əlavə edib ki, A.Merkellə F.Ollandın enerjisi "Ukrayna qazanını" söndürməyə kifayət edibsə, bu, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün bəsdir:** "Dağlıq Qarabağ tənzimlənməsində ortada hazır sənəd var: ATƏT MQ həmsədr ölkə prezidentlərinin İtaliyanın Akvil şəhərində 2009-cu ilin iyulun 10-da imzaladığı sənəd ABŞ prezidentinin mətbuat xidməti tərəfindən "Madrid Prinsiplərinin Yenilənmiş Variantı" adı ilə yayıldı. Bu sənədi instisionallaşdırmaqla onun sülh müqaviləsi formasına salmaq mümkündür. Beləliklə, A.Merkel və F.Olland daha az vaxt sərf etməklə Yenilənmiş Madrid Prinsiplərinin implementasiyasına nail ola bilərlər. Görüş yeri mühüm müzakirə tələb edən məsələ olmamalıdır. A.Merkel-F.Olland tandemi Moskvaya səfəri də özləri müəyyənləşdirməlidirlər. Amma belə görüş üçün ən ideal variant Ermənistan-Azərbaycan sərhədində təşkil edilmiş xüsusi yerdir. Qısa müddət ərzində sərhəddə yarısı Ermənistanın, yarısı Azərbaycanın ərazisində olan bina tikmək mümkündür. Bu binanın adını elə hər iki ölkə başçısının adına "Sülh evi" adlandırıb gələcəkdə də saxlamaq olar. A.Merkel və F.Olland Minsk Qrupunun digər üzvlərini də bu "Sülh evi"nə toplamaqla Yenilənmiş Madrid prinsipləri əsasında hazırlanmış sülh müqaviləsini Azərbaycan və Ermənistana qəbul etdirir, dərhal Minsk Qrupunun iclası keçirilir və Dağlıq Qarabağın statusu da müəyyənləşir. Bununla da Dağlıq Qarabağ münaqişəsi regiona aid Azərbaycan və Ermənistanda fərqli siyasi və iqtisadi proseslərin bünövrəsi qoyulur. Ermənistan bütün iqtisadi problemlərindən xilas yolunu tapa bilir".

**M.Əhmədoğlunun fikrincə, vasitəçilərin ünvanlı bəyanatlarında ermənilərin əsir götürdüyü 2 azərbaycanlının vəziyyətinin yer alması da müsbət hadisədir:** "Ermənilərin etimad tədbirlərinin möhkəmləndirilməsinə dair özünəməxsus yanaşmaları var. Ermənilər yalnız snayperlərin geri çəkilməsini etimad tədbiri kimi başa düşürlər. Amma azərbaycanlı girovları həbsdən azad etmək etimad tədbirlərinin başlanğıcıdır. Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının dialoqunu təşkil etmək isə etimad tədbirlərinin ən yüksək mərhələsidir. Həmsədrlərin ayrı-ayrılıqda yaydığı ünvanlı 2 bəyanatda ehtiyatla işlətdiyi termin var. "Hərtərəfli sülh danışıqlarına yaxınlaşmaq". Əslində həmsədrlərin bütün fəaliyyətini heçə endirən də məhz bu məsələdir. Həmsədrlər Hərtərəfli və ya Böyük Sülh Sazişi terminini işlədə bilmirlər. Amma prezidentlərdən siyasi iradə tələb edirlər. "Böyük Sülh Sazişi" terminini istifadə etməyə siyasi iradəsi olmayan adamların ölkə prezidentlərindən siyasi iradə tələb etməsi komediya janrında yenilikdir. Həmsədrlər Ermənistana ünvanlanmış bəyanatında vurulmuş vertolyot insidentini də qaldırırlar. Bu, faktiki Ermənistanın qarşısında tələbdir".

**M.Əhmədoğlu əlavə edib ki, Yenilənmiş Madrid Prinsipləri 2009-cu ilin iyul ayından ortadadır:** "Faktiki Böyük Sülh Sazişinin hazırlanmasının bazasıdır. Bunu implementasiya etməklə həmsədrlər çox qısa müddət ərzində Böyük Sülh Sazişini ortalığa qoya bilərlər. Bu işi etmirsə, deməli, həmsədrlər dediklərində səmimi deyillər. Məqsədləri münaqişəni tənzimləmək deyil, bir-biri ilə geosiyasi ötürmələr etməkdir. Azərbaycan isə öz yolu ilə davam edir. Qeyri-səmimi, ermənilərin əlində alət olan "Böyük Sülh Sazişi" terminini dilə gətirə bilməyən həmsədrlər çox zəifdirlər və Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək istiqamətindəki fəaliyyətinə maneçilik törədə bilməzlər".

**

Bu arada Türkiyənin baş nazirinin erməni əsilli müşaviri Etyen Mahçupyan da maraqlı açıqlama ilə çıxış edib. O, Türkiyə mediasına açıqlamasında deyib ki, "Türkiyə-Ermənistan danışıqları Ermənistan-Azərbaycan danışıqları ilə paralel aparılmalıdır. Onun sözlərinə görə, Türkiyə ilə Ermənistan arasında münasibətlərin tez bir zamanda bərpa edilməsi qeyri-mümkündür, bunun ən başlıca səbəbi isə Dağlıq Qarabağ probleminin olmasıdır".

Müşavirin sözlərinə görə, Cənubi Qafqazda stabilliyin olması daha çox Rusiyadan asılıdır, Rusiya nə zaman istəsə, onda da Cənubi Qafqazdakı problemlər çözülə bilər. O, həmçinin deyib ki, Türkiyə ilə Rusiyanın münasibətlərinin yaxınlaşması Cənubi Qafqazdakı problemlərin həllini sürətləndirər.

YENİ MÜSAVAT
N 37 (6065) 18 fevral 2015


Bilal Ərdoğan


Mübariz Mənsimov

# Ərdoğanın oğlu Mübariz Mənsimovun gəmisini aldı

## Tanker 140 metr uzunluğunda, 16 metr enindədir və 7 min ton su tutumuna malikdir

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşı Mustafa Ərdoğan, oğlu Nəcməddin Bilal Ərdoğan və yeznəsi Ziya İlgenin ortaq şirkəti "BMZ Group Denizçilik" azərbaycanlı oliqarx, gəmiçilik maqnatı Mübariz Mənsimovun daha bir neft tankerini satın alıb.**

Virtualaz.org saytı Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, "BMZ Group Denizçilik" Mübariz Mənsimovun "Palmali Denizçilik" şirkətinin təsisçiliyi ilə Maltada qurulan "Armada Voyager Seven" şirkətinin mülkiyyətində olan "Şövkət Ələkbərova" tankerinə 18 milyon dollar ödəyib.

Tanker 140 metr uzunluğunda, 16 metr enindədir və 7 min ton su tutumuna malikdir. Tanker ötən il suya buraxılıb.

Gəminin satılması Mübariz Mənsimovla Ərdoğanın ailə üzvləri arasında ortaq gəmiçilik biznesinin bir hissəsidir. Bundan əvvəl Türkiyə mediası yazmışdı ki, "BMZ Group Denizçilik" şirkəti "Palmali Denizçilik" şirkətindən "Armada" tipli 10 neft tankeri sifariş edib.

Tankerlər "Palmali" şirkətinin ayırdığı kredit hesabına Ərdoğana yaxın iş adamının tərsanəsində yığılmalıdır. Müqavilənin şərtlərinə görə, həmin tankerləri daha sonra "Palmali" "BMZ Group"dan kirayəyə götürür.

Türkiyə mediası bu qəribə sövdələşmədən yazandan sonra "BMZ Group" tankerlərin 5-nin sifarişini ləğv edib.




# SOCAR Gürcüstanda qazın qiymətini artırmaqdan imtina etdi

**SOCAR Gürcüstanda kommersiya istehlakçıları üçün qazın qiymətini artırmaqdan imtina edib. Bu barədə "Trend"ə "SOCAR Energy Georgia" şirkətindən bildirilib.**

"SOCAR Gürcüstanda kommersiya istehlakçıları üçün qazın qiymətini artırmayıb. Kommersiya strukturları üçün qiymətlərin artırılması təşəbbüsü "Kaztransqaz-Tiflis" şirkətindən gəlib.

Onların bəyanatı yayılandan sonra bizdə də bununla bağlı müəyyən fikirlər olub. Bununla belə, biz çörəkbişirmə və təhsil müəssisələri üçün qiymət artımını nəzərdən keçirmirdik və nəticədə bu ideyadan ümumiyyətlə imtina etdik", - şirkətdə qeyd ediblər.

Mənbənin məlumatına əsasən, "Kaztransqaz"ın xəbərdarlığı hələ də qüvvədədir. Şirkət martın 1-dən etibarən hüquqi şəxslər üçün bir kubmetr qazın qiymətini 0.9 lari (0.44 dollar/0.34 qəpik) artıracaq.

"Buna baxmayaraq, Azərbaycan qazının qiyməti artmayıb və şirkətin yaxın planlarında bu, nəzərdə tutulmayıb",- şirkətdən bildirilib.

Qeyd edək ki, hazırda Tiflisdə təbii qazın qiyməti bir kubmetrə görə 0.4562 lari (təxminən 0.23 dollar/0.18 qəpik), regionalrda isə 0.4 laridən (təxminən 0.2 dollar/0.15 qəpik) 0.5 lariyə (təxminən 0.25 dollar/0.19 qəpik) qədərdir.

# Bakıda "yaşıl pul" ajiotajı: banklar qapılarını bağladı

## Ekspertlər baş bankirin açıqlamasını tələskənlik adlandırır, paytaxtda dollar satışı dayandırılıb, ərzaq məhsullarının isə bahalaşması gözlənilir




**Fevralın 16-da Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmovun manatın kursunun düşəcəyi barədəki xəbərdarlığından sonra paytaxt Bakıda dollar qıtlığı yaşanır. Bakı sakinləri kütləvi şəkildə valyutadəyişmə məntəqələrinə yollanaraq milli pulu ABŞ dollarına dəyişməyə çalışır.**

Fevralın 17-də günorta saatlarında paytaxtın mərkəzi 28 May küçəsində yerləşən valyutadəyişmə məntəqələrində ABŞ dollarının satışı dayandırılıb. Dollar tapmayan Bakı sakinləri avro almağa da üstünlük verib. "Yaşıl pul" almağa çalışan Bakı sakinləri deyir ki, digər valyutadəyişmə məntəqələri də dollar satışını dayandırıb. "Adamlar səhər tezdən gəlib dollar və ya avro almağa, əllərindəki manatdan xilas olmağa çalışırlar. Hazırda bizim məntəqədə bircə dollar da qalmayıb. Hamısını satmışıq. Bu vəziyyətin nə vaxta qədər davam edəcəyini bilmirik" deyə, D.Əliyeva küçəsindəki valyutadəyişmə məntəqələrindən birinin sahibi virtualaz.org saytına bildirib. Qeyd edək ki, böyük ajiotajdan sonra hətta banklar da dollar satışını dayandırıb.

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, deputat Vahid Əhmədov isə Mərkəzi Bankın addımını tələskənlik adlandırıb:** "Mərkəzi Bankın sədri Elman Rüstəmov manatı devalvasiya gözləyəcəyini əvvəlcədən bəyan etməklə bir qədər tələsdi". **O, əlavə edib ki, manatın kursunun süni şəkildə sabit saxlanması ölkənin büdcəsinə doğrudan da mənfi təsir göstərirdi:** "Təsəvvür edin ki, Mərkəzi Bank manatın kursunu sabit saxlamaq üçün təkcə bu ilin əvvəlində 1,5-2 milyard dollar xərcləyib. Daha belə davam edə bilməzdi. Çünki Mərkəzi Bankın da ehtiyatları sonsuz deyil". Ekspert əmindir ki, manatın kursunun düşəcəyi barədə açıqlama verərkən daha ehtiyatlı olmaq lazım idi: "Bu siyasəti daha yumşaq aparmaq lazım idi ki, əhali arasında ajiotaj yaranmasın".

**Ekspert Fikrət Yusifov isə qeyd edib ki, milli valyutanın məzənnəsinin dəyişəcəyi barədə mətbuatda qaldırılan səs-küyə heç bir ehtiyac yoxdur. O, sosial şəbəkədə yazdığı statusda bildirib ki, burada söhbət əsasən manatın kursunun təkcə bir valyutaya-dollara bağlanması prinsipindən daha etibarlı sayılan iki valyuta hesabına formalaşacaq səbət vasitəsilə müəyyən edilməsindən gedir:** "Bu gün manatın kursunun kəskin dəyişməsi ehtimalı yoxdur. Ona görə də belə ajiotaj yaratmaq heç kimə lazım deyil".




**Ekspert Natiq Cəfərli isə bildirib ki, 2008-ci ildə qlobal iqtisadi böhran başlayanda Azərbaycan hökuməti ciddi səhv edib:** "Manatın kursunu az da olsa salmalı idi, bunu etmədi. Çünki manatın kursunu iqtisadi amildən çıxararaq, siyasi sabitliyin simvollarından birinə çevirmişdilər. O zaman çox yazdıq, dedik, çıxışlar etdik, amma dinləmədilər. Halbuki 2008-də manat az da olsa, yumşaq devalvasiya edilsəydi, hələ can verən qeyri-neft sektorunun ixrac potensialını artırmaq olardı. Paralel olaraq islahatlar da etmək şərti ilə bunu etmək mümkün idi. Mərkəzi Bank və hökumət indi 2015-ci ildə yumşaq devalvasiyaya, yəni milli valyutanın ucuzlaşmasına gedəcəyinin siqnalını verdi. Səbəb kimi də guya qeyri-neft sektorunun ixracatının artırılmasına yardım, iqtisadiyyatın çoxşaxəli modelə keçməsinə kömək göstərilir. Gülməlidir, Azərbaycanda qeyri-neft sektoru yox səviyyəsindədir! İxracatda bu sektorun payı 2 faizdən çox deyil. Hökumətin "qeyri-neft sektoru" dediyi sahə təmir-tikinti sahəsidir ki, bu da neftə görədir. Neftin pulu Neft Fonduna, büdcəyə, təmir-tikintiyə gedir, vəssalam. Yəni neft pulu olmayanda "qeyri-neft" sektoru da olmayacaq".

**Ekspertin sözlərinə görə, hökumətin manatın yumşaq devalvasiyasına getməyə qərar verməsinin önəmli faktorları var:** "Birincisi, neftin ucuzlaşmasıdır. İkinci, ölkəyə əsasən 2 mənbədən valyuta daxil olurdu, neftin pulu və Rusiyadan öz ailələrinə göndərilən vəsait. Hər iki mənbədən gələn vəsait azalıb, özü də ciddi azalıb, Rusiya ilə bağlı isə hətta əks proses gedir. Yaxşı vaxtlarda Rusiyada çalışıb qazandığı vəsaitə Bakıda daşınmaz əmlak alan bəzi iş adamları, Rusiyada öz bizneslərini ayaqda tutmaq üçün həmin mülklərini satıb, dollara çevirib, Rusiyaya aparırlar. Deməli, manata olan basqılar ciddi artıb, hökumət məhz bu səbəbdən yumşaq devalvasiyaya getmək qərarı alıb. "İxracatı artırmaq, istehsalçını qorumaq" söhbətləri mifdir".

**N.Cəfərli qeyd edib ki, manatın kursunun azalması qaçılmazdır:** "Əgər hökumət "səbət" tənzimləməsinə keçib, manatı avroya, bununla da avronun dollara nisbətən kursuna bağlamaq istəyirsə və prezidentin də elan etdiyi kimi, "1 manat 1 avroya bərabərdir",- formuluna görə dolların kursu hesablanacaqsa, onda indiki kursla 1 dollar 0,88 manata bərabər olacaq. Yaxın gələcəkdə avronun kursu dollara qarşı enəcək. O zaman dolların manata qarşı kursu da qalxacaq. Yəni 1 avro 1,05 dollara qədər kurs ensə, onda 1 dollar 0,95 manat olacaq. Ehtimallar bu kursun daha real olacağını göstərir. Yox, əgər avro daha da ensə, yəni 1 avro 1 dollara bərabər olsa, onda "ideal" kurs yaranacaq: 1 avro 1 manata və eyni zamanda 1 dollara bərabər olacaq. Bir sözlə, manatın kursunun azalması qaçılmazdır. Bu isə öz növbəsində ölkədə ciddi inflyasiyaya, qiymət artımına gətirib çıxaracaq. Bundan başqa, qiymətlərin və kreditlərin yenidən "dollarlaşması" olacaq. Yəni daşınmaz əmlak və avtomobil qiymətləri keçmiş illərdə olduğu kimi, yenə dollarla alınıb-satılacaq. Banklar da kreditləri dollarla verməyə başlayacaq.

Qeyd edək ki, fevralın 17-də ölkədə manatın məzənnəsi ABŞ dolları ilə müqayisədə aşağı düşüb. Mərkəzi Bankın məlumatına görə, 1 ABŞ dolları 0,7853 manat olub. İnflyasiyanın 7 faiz qalxacağı da istisna olunmur. Belə olan təqdirdə, birbaşa istehlak bazarında qiymətlərin bahalaşması baş verə bilər. Ekspertlər bildirirlər ki, qiymətlərin bahalaşması inflyasiyanın qalxması ilə əlaqəlidir. Ölkəyə gətirilən mal və məhsulların böyük əksəriyyəti xaricdən dollarla alındığından, daxili bazarda onların manatla olan ekvivalenti artıma səbəb olacaq. Bildirilir ki, Mərkəzi Bankın rəhbərinin bu il inflyasiyanın 7 faiz civarında olacağı barədə açıqlaması da onu göstərir. Yəni həm ərzaq, həm də qeyri-ərzaq bazarında müəyyən dərəcədə artım olacaq. Bu da dolların kursu ilə əlaqəlidir. Ölkədə istehlak olunan ərzaq məhsullarının yarısından çoxu xaricdən gətirilir. Dollar qalxdıqca, ölkəyə gətirilən məhsulların manatla dəyəri qalxacaq.

❑ RÖYA

**Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun oğlunun qətlə yetirilməsində təqsirləndirilərək, həbs olunmuş məhkumlar Lamiyə Quliyeva və Vüqar Əliyevin işi ətrafındakı müəmmalar artmaqdadır.**
**Lamiyə Quliyevanın ANS-ə son açıqlaması isə onunla bağlı müəmmaları nəinki aydınlığa qovuşdurdu, əksinə, həbsxana şəraitində nikahdankənar uşaq dünyaya gətirməsi olayını bir qədər də pərdələdi.**


Lamiyə Quliyeva

# Kürdəxanı təcridxanasının əməkdaşları "Lamiyə olayı"na görə həbs olunub?

## Ədliyyə Nazirliyi süni mayalanma iddiasını təkzib etdi

Məlum olan odur ki, ya məhkum Lamiyə Quliyeva, ya da onun uşağının atası olduğu iddia edilən Elnur Rəsulov yalan danışır, yaxud buna məcbur edilirlər.

Məntiqlə fikirləşdikdə isə qadın məhkumun dediklərinin həqiqiliyinə inanmaq istəyirsən. Hər halda, onun özünün də dediyi kimi, uşağın atası olan şəxs kimlərisə güdaza verməmək üçün ortaya belə bir iddia atır ki, guya realıqda yaxınlıq etməyiblər. Guya Elnur Rəsulov Lamiyənin ana olması üçün öz toxum mayesi olan qabı ip vasitəsilə aşağı mərtəbədən qadın məhkumların saxlanıldığı yuxarıdakı kameraya ötürüb. İki həftə sonra isə Lamiyə tərəfindən "müjdəli" xəbər alıb: "Mən hamiləyəm".

Bu işlə bağlı Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun həbsinə hazırlıq getdiyi iddia olunduğu bir vaxtda modern.az-a Penitensiar Xidmətin, daha doğrusu, Kürdəxanı istintaq təcridxanasının bir neçə əməkdaşının həbs olunduğu xəbəri verilib.

Əslində məsələyə aydınlıq gətirəcək bir qurum var - Ədliyyə Nazirliyinin Penitensiar Xidməti. Elə bu səbəbdən də sözügedən quruma sorğu ilə müraciət edilib.

**Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən modern.az-ın sorğusuna cavab olaraq bildirildi ki, hazırda olayla bağlı araşdırma davam etdirilir:** "Penitensiar Xidmətə ünvanladığınız suala cavab olaraq bildiririk ki, məhkum Lamiyə Quliyevanın həbsdə övlad dünyaya gətirməsi ilə bağlı dəfələrlə rəsmi açıqlamalar olub və bildirilib ki, araşdırma aparılır".

**Cavabda o da vurğulanıb ki, Penitensiar Xidmət hətta araşdırma dövründə də müvafiq açıqlamalar verib:** "Hazırda prokurorluq orqanları tərəfindən araşdırma davam etdirilir".

### Baş idarə rəisinin müavini: "Həbsxana mühitində süni mayalanma..."

**Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi Müalicə işinin təşkili idarəsinin rəisi - baş idarə rəisinin müavini, İftixar Qurbanov azvision.az-a açıqlamasında bildirib ki, süni mayalanmanın baş tutması üçün onlara heç bir məhkum müraciət etməyib:**

"Həbsxana mühitində süni mayalanma deyilən bir əməliyyat yoxdur. Süni mayalanmanın həyata keçirilməsi ilə bağlı bizə indiyə qədər heç bir məhkum müraciət etməyib. Biz məhkumların sağlamlığının bərpası ilə məşğul oluruq. Məhkumların sağlamlıq məsələləri daimi nəzarətimizdədir".

Qeyd edək ki, yanvarın 17-də axar.az saytı məhkum Lamiyə Quliyevanın saxlandığı 4 saylı cəzaçəkmə müəssisəsində ana olması xəbərini ictimailəşdirib. Bundan sonra Penitensiar Xidmət 2014-cü ilin oktyabrında uşağın atasının kimliyinin araşdırıldığını bəyan edib. Sonradan Ombudsman Aparatı, Baş Prokurorluq da araşdırmalara qoşulub. Yayılan məlumatlarda qeyd edilir ki, məhkum Elnur Rəsulov özünün toxum mayesini L.Quliyevaya göndərib. Lakin L.Quliyeva E.Rəsulovla görüşdüyünü bəyan edib. E.Rəsulov Ombudsman Aparatına yazdığı izahatda görüş faktını inkar edir, uşağın süni mayalanma ilə dünyaya gəldiyini bildirir. Ortada olan budur ki, Lamiyə Quliyeva canlı təmas vasitəsilə ana olduğunu, uşağın atası Elnur Rəsulov isə bunun süni mayalanma ilə baş tutduğunu iddia edir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Həkim terroru" işində yenilik

## Məhkəmə Elnarə Tofiqqızının ölümündə təqsirləndirilən Fərəculla İdrisovu məcburi şəkildə üzləşməyə gətirəcək

**Fevralın 17-də Nəsimi Rayon Məhkəməsində BSU-nun dekanı, tənqidçi Elnarə Tofiqqızının ölüm işi ilə bağlı növbəti proses keçirilib.**


Elnarə Tofiqqızı

Bu barədə redaksiyamıza zərərçəkən Anar Niftəliyevin hüquqi nümayəndəsi Səməd Vəkilov məlumat verib. S.Vəkilov qeyd edib ki, proses mart ayının 3-nə təxirə salınıb: "Ötən məhkəmə iclasında təqsirləndirilən Fərəculla İdrisovun dindirilməsi zamanı açıqlamaları proses iştirakçılarının hamısının diqqətini cəlb etmişdi. O, ifadəsi zamanı özünü təkzib edən, bir-birini tutmayan şahid ifadələri vermişdi.

Məlum oldu ki, o, ibtidai istintaq zamanı məsuliyyətdən necə yayınıbsa, şahid ifadələri verən zaman da bu formada məsuliyyətdən yayınmağa çalışır. Məhkəmə iştirakçıları və hakim o qərara gəldi ki, Fərəculla İdrisovun ittiham aktında verdiyin ifadələrlə məhkəmə istintaqı zamanı verdiyi ifadələr eyniyyət təşkil etmədiyi üçün zərərçəkən Anar Niftəliyev Fərəculla İdrisovla məhkəmədə üzləşsinlər. Ancaq Fərəculla İdrisov heç bir səbəb olmadan prosesə gəlmədi".

S.Vəkilov qeyd edib ki, məhkəmənin qərarı ilə Fərəculla İdrisov növbəti prosesə məcburi şəkildə gətiriləcək. Xatırladaq ki, mərhum E.Tofiqqızı 2013-cü il sentyabrın 20-də "Medi Sina" klinikasında süd vəzi kanalının popilloması əməliyyatı zamanı həkim səhlənkarlığından dünyasını dəyişib. Sentyabrın 25-də Nəsimi Rayon Prokurorluğunda fakt üzrə cinayət işi başlanılıb.

Aprelin 10-da isə iş Nəsimi Prokurorluğundan alınaraq, Bakı Şəhər Prokurorluğuna, müstəntiq Vaqif Süleymanovun icraatına verilib. Hazırda iş Nəsimi Rayon Məhkəməsində hakim Şəlalə Həsənovanın icraatındadır.

Nəsimi Rayon Məhkəməsində yalnız həkimlərdən biri - anestezioloq Firuz İbrahimov CM-in 124.1 (ehtiyatsızlıqdan adam öldürmə) və 320.1 (hüquqi sənədləri bilə-bilə saxtalaşdırma) maddələri ilə ittiham olunur.

Prokurorluq onkoloq Mahir Məmmədov və assistent Fərəcullah İdrisovun əməllərində vergidən yayınma və dələduzluğa cəhd faktları aşkarladığından, araşdırılması üçün materiallar müvafiq olaraq Vergilər Nazirliyinin İstintaq İdarəsinə və Nəsimi Rayon Polis İdarəsinə göndərilib. Nəsimi Rayon Polis İdarəsi dələduzluğa cəhd maddəsi ilə cinayət işi açmaqdan imtina etdiyi üçün hazırda zərərçəkən tərəf Nəsimi Rayon Prokurorluğuna şikayət verib.

❑ **EMİL**

# Yol polisindən "Xırdalan postu əməliyyatı"na reaksiya


Kamran Əliyev

**Baş Dövlət Yol Polisi İdarəsi "Xırdalan postunda" aparılan əməliyyatlara münasibət bildirib. İdarənin İctimai qurumlarla əlaqələr şöbəsinin rəisi Kamran Əliyevin avtolent.az-ın sorğusuna cavabında qeyd edib ki, ölkə ərazisində baş verən yol-nəqliyyat hadisələrinin sayının minimuma endirilməsi, həmçinin yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində yol polisi mütəmadi iş aparır. Həyata keçirilən yoxlamaların məqsədi sərxoş sürücülərin müəyyən edilməsi, axtarışda olan nəqliyyat vasitələrinin müəyyənləşdirilməsi və s. məsələlərlə bağlıdır.**

Yol polisi bütün respublika ərazisində, o cümlədən Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin paytaxtın girişindəki Ekologiyaya Nəzarət Yol Patrul Bölüyünün stasionar postunda fevralın 8-də reyd həyata keçirilib. Reyd zamanı avtomobili sərxoş vəziyyətdə idarə edən 3 sürücü saxlanılıb və onların barəsində müvafiq tədbir görülüb.

Xəbər verdiyimiz kimi, bir neçə gündür Baş Dövlət Yol Polisi İdarəsi "Xırdalan postu" kimi tanınan Ekologiya Postunda əməliyyat keçirir. Hadisə şahidlərinin sayta verdiyi məlumata görə, əməliyyatlar əsasən gecə saat 00.00-dan sonra başlayır və bir neçə saat davam edir. Əməliyyat zamanı Bakı şəhərinə daxil olan bütün avtomobillər bir-bir yoxlanılır. Bunun nəticəsində paytaxtın girişində böyük tıxac müşahidə edilir.

# Bakıda polisin üzünü şüşə ilə kəsdilər

**Bakıda iki qardaş xidməti vəzifəsini yerinə yetirən polisə hücum edib. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, hadisə bir neçə gün öncə saat 23:30 radələrində Salamzadə küçəsi 16-da yerləşən "Miraj" kafesində baş verib.**

Gədəbəy rayon sakinləri - 1990-cı il təvəllüdlü Zamin Məmmədov və qardaşı, 1992-ci il təvəllüdlü Zaməddin ictimai qaydanı pozduğu üçün həmin vaxt xidmətdə olan DİN-in Çevik Polis Alayının polis serjantı, 1984-cü il təvəllüdlü Zaur Vəliyev tərəfindən intizama dəvət edilib.

Qardaşlar polisə müqavimət göstərib, Zaməddin Məmmədov şüşə parçası ilə Z.Vəliyevin sifətini kəsib. Məmmədov qardaşları saxlanılıb. Onların hadisə vaxtı sərxoş olduqları müəyyən edilib.

# 455 min manatı mənimsəyən vəzifəli şəxsin işi məhkəməyə göndərildi



**"Ulu" Məhdud Məsuliyyətli Cəmiyyətin sabiq direktorunun qanunsuz əməlləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı yekunlaşıb.**

Virtualaz.org Baş Prokurorluğa istinadən bildirir ki, istintaq zamanı cəmiyyətin sabiq direktoru İlham Səfərovun qulluq mövqeyindən istifadə etməklə Binəqədi rayonu ərazisində qaz xəttinin çəkilişi ilə əlaqədar "Azəriqaz" İstehsalat Birliyi ilə bağlanmış podrat müqaviləsinə əsasən həmin işlərin görülməsini subpodraçılara həvalə etməklə görülən işlərin müqabilində birliyin "Bank of Azərbaycan"ASC-dəki bank hesabından çıxardığı 455 min manat məbləğində pulu subpodratçılara ödəməyərək mənimsəməsində şübhələr üçün əsaslar olduğundan ona Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə) maddəsi ilə ittiham elan edilib.

İstintaq zamanı vurulan ziyanın əhəmiyyətli hissəsinin - 319 min manatın ödətdirilməsi təmin edilib.

Cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# 83 yaşlı kimsəsiz və kor qoca yanıb öldü


Virtualaz.org

**Fevralın 17-də səhərə yaxın Salyan şəhəri "Dəmiryolçular" yaşayış massivində yanğın olub. Nəticədə dəmir yolunun istifadəsiz yardımçı binasında məskunlaşmış 83 yaşlı Rüstəmov İbrahim Soltan oğlu yanaraq ölüb.**

Virtualaz.org saytının Şirvan bürosunun müxbiri xəbər verir ki, 83 yaşlı qocanın gözləri görmürmüş. Elə yanğının da bu səbəbdən baş verdiyi ehtimal edilir. Onun yatdığı yerdə yanıb öldüyü təsdiqlənib.

İ.Rüstəmov ailə qurmayıbmış. Övladları və başqa qohumları olmadığından qəsəbə sakinləri kimsəsiz mərhumu özləri dəfn ediblər. Faktla bağlı yerli polis tərəfindən araşdırma aparılır.

# SOCAR Londonda neft həftəsi keçirdi

## Ekspertlər dünya neft bazarındakı vəziyyəti təhlil ediblər

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Londonda təşkil etdiyi Beynəlxalq Neft Həftəsi günlərində ekspertlər dünya neft bazarındakı vəziyyəti təhlil ediblər. Virtualaz.org saytı xəbər verir ki, "The Financial Times" qəzeti bu müzakirələr zamanı ekspertlərin etdiyi çıxışlar əsasında analitik məqalələr hazırlayıb.**

Məqaləni "The Wall Street Journal" qəzetləri, CNBC telekanalının saytı, neft sektoru üzrə ixtisaslaşmış digər nəşrlər də yayıblar.

Məqalədə deyilir ki, dünya neft bazarında bir neçə il davam edən sabitlikdən sonra neft treyderləri 2008-ci ildə baş verən qlobal böhrandan bəri ilk dəfə olaraq gəlirliliyin azalmasından və rentabelliyin düşməsindən faydalanaraq gəlirlərini artırırlar.

"SOCAR-ın Londonun Park-lein rayonunda, "Grosvenor House" hotelində səxavətlə təşkil etdiyi ziyafətdə neft bazarındakı vəziyyət haqda unutmaq və kədərlənməyi kənara qoymaq şansı var idi. Lakin digərləri bu qonaqpərvərlikdən şənlənmək üçün istifadə ediblər. Belə ki, neft treyderləri bazarda mövcud olan bir neçə illik sabitlikdən sonra gəlirlərini artırmaq üçün ən münbit şəraitlə qarşılaşıblar" - deyə məqalədə bildirilir.

Qəzet yazır ki, bazarda xam neftin və neft məhsullarının saxlanması, satışı və tədarükünə nəzarət edən "Glencore", "Gunvor", "Mercuria", "Trafigura" və "Vitol" kimi iri şirkətlər üçün neft bazarında baş verən bu "partlayış" fayda gətirə bilər.

"2015-ci il maraqlı il ola bilər. Qiymətlər tez-tez dəyişir və bazarda qeyri-müəyyənlik yaranıb. Neft ucuzlaşıb, maliyyə xərcləri artıb, kontanqo yaranıb" - deyə "Oliver Wyman" beynəlxalq konsaltinq şirkətinin Sürixdəki (İsveçrə) tərəfdaşı olan Roland Rexştayner qeyd edib.

Bununla yanaşı, vurğulanır ki, 2008-2009-cu illərdə yaranmış analoji vəziyyət neft şirkətlərinin rekord həddə gəlir əldə etməsinə səbəb olub. Kontanqo yüksək həddədirsə, neft əməliyyatçıları bundan pul qazanmağa çalışır, nefti alaraq saxlayır, sonra isə onu hərracda baha qiymətə satırlar.

Məqalədə qeyd olunur ki, maliyyə böhranı baş verdiyi dövrdən etibarən neft qiymətlərindəki dəyişkənliyin intensiv xarakter alması, böyük həcmdə neft alıb-satan sənaye nəhənglərinin rentabellik məsələsində nikbin olmaları üçün daha bir səbəb doğurur.



"Neftin qiymətinin tez-tez dəyişməsi neft satışı ilə məşğul olan əməliyyat şirkətləri üçün faydalıdır. Neftin qiyməti nə qədər çox dəyişirsə, əmtəə satışı da bir o qədər çox olur" - deyə "Trafigura" neft ticarəti şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə maliyyə direktoru Kristof Salmon deyir.

Bir çox iri neft tədarükü şirkətləri əsas aktivlərin əldə edilməsi istiqamətində irəliləyişə nail olmaq məqsədilə neft emalı zavodları, eləcə də neft yataqları, anbarlar və limanlar alırlar. "Gunvor" şirkətinin Avropada iki neft emalı zavodu var, "Vitol" isə "Carlyle" şirkətləri isə birlikdə iki zavodun səhmlərinə sahibdir.

Neftin qiymətinin düşməsi həmçinin treyderlərin dövriyyə kapitalının da yüksəlməsinə səbəb olub. Çünki xam neftin bir bareli 100 dollara deyil, 60 dollara satıldığından, neft tankerinin alınması üçün çəkilən sərmayə azalır. Aşağı faiz dərəcələri də neft ticarəti şirkətlərinin dövriyyə kapitalının artmasına imkan yaradır.

Bundan əlavə, bank ekspertlərinin ehtimallarına görə, satış borclarının vaxtından əvvəl qaytarılması, o cümlədən neft əməliyyatları ilə bağlı kreditlərin verilməsi çoxala bilər. Çünki istehsalçılar neftin qiymətindəki ucuzlaşmanı müşahidə etdiklərindən, başqa maliyyə mənbələri axtara bilər.

Neft ticarəti ilə məşğul olan şirkətlər satışdan yaranan borcların vaxtından əvvəl ödənilməsində maraqlıdır, çünki bu maliyyə vəsaitləri bir neçə il ərzində aylıq tədarük üçün zəmanət mənbəyi rolu oynayır.

Lakin eyni zamanda hazırkı bazar şərtləri əvvəlki illərlə müqayisədə daha yaxşı olsa da, 2015-ci ildə gəlirliliyin iri neft şirkətləri üçün 2008-2009-cu illərdəki kimi rekord nəticə göstərəcəyinə inam elə də çox deyil.

"Hər şey yaxşıdır, amma elə də yaxşı deyil. Rəqabət yüksəkdir" - deyə Cenevrədə yerləşən digər neft ticarəti evinin rəhbəri bəyan edir.

K.Salmon hesab edir ki, imkanlar genişləndikcə risklər də artır. Əgər risklərin idarə olunması və onlara nəzarətlə bağlı güclü idarəetmə sistemi mövcuddursa, deməli, bazar şərtləri də yaxşıdır.

Digər tərəfdən, bildirilir ki, bazarda neft ehtiyatlarının saxlanması barədə gəzən söz-söhbətlər həddindən artıq şişirdilib, çünki "Brent" və WTI markalı xam neftin kontanqosu o qədər də yüksək deyil ki, neft ehtiyatlarının saxlanmasına bu qədər böyük ehtiyac yaransın.

"Ehtiyatın saxlanmasını labüd edən iki həftəlik kiçik bir imkan yaransa da hazırda buna ciddi ehtiyac yoxdur. Heç bir halda neft məhsullarının qiymətlərində kontanqo yaranmayıb" - deyə "Vitol" neft ticarəti şirkətinin rəhbəri Yan Teylor qeyd edib.

❑ **Hazırladı: R.Rəfiyeva**




## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- *Çayek balı*
- *Karkıra balı və s.*

**Ünvan:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Bibiheybət sakini nişanlısının 24 yaşlı qardaşını öldürdü

**Bibiheybət qəsəbəsi, 2-ci Bibiheybət döngəsi, ev 19-da qanlı cinayət törədilib. 1981-ci il təvəllüdlü Mustafayev Rasim Teymuraz oğlu 24 yaşlı Elvin Hüseynlini bıçaqlayaraq öldürüb. Bildirilir ki, R.Mustafayev E.Hüseynlinin bacısı Türkanın nişanlısı olub. Belə ki, evdə heç kim olmadığı zaman Rasim Türkanın yaşadığı mənzilə gələrək orada gizlənib. Türkan, Elvin və anaları evə gələndə Rasim özü ilə gətirdiyi bıçaqla onları vurub və qaçıb. E.Hüseynli xəstəxanaya aparılarkən keçinib. T.Hüseynova isə ambulator müalicəyə yazılıb.**




## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**
**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 37 (6065) 18 fevral 2015

# Səudiyyə Ərəbistanı imamının iddiasına Bakıdan ilginc reaksiyalar

## “Yer kürəsi fırlanmır” deyənlər “fırlanır” deyənlərə qarşı…



Şeyx Bender Əl Hayberi

**Səudiyyə ərəbistanlı imam Şeyx Bender Əl Hayberi Yer kürəsinin fırlanmadığını deyib. “Əgər yer planeti fırlanırsa, o zaman bir təyyarə havada dayansa Çinin təyyarəyə doğru gəlməsi lazımdır”.**

İmam əlindəki stəkanla Yer planetinin fırlanmadığını sübut etməyə çalışıb: “Dünya sabitdir. Hərəkət etmir. Əgər təyyarə ilə Çinə getsək və təyyarə havada dayansa, o zaman belə çıxır ki, Çin təyyarəyə doğru gəlməlidir. Doğrudur ya yox? Əgər Yer kürəsi əksinə istiqamət etsəydi bu dəfə də təyyarə heç vaxt Çinə çata bilməzdi”.

İmamın videosu Youtube sosial şəbəkəsinə yükləndikdən sonra mövzu geniş müzakirə edilib. **Sələfilərin lideri Hacı Qamət Süleymanov** “Qafqazinfo”ya açıqlamasında bu fikrə münasibət bildirib. O da imamın fikrini təsdiqləyib: “Yer kürəsinin fırlanması haqda İslam alimləri deyib ki, fırlanmır. Onlar da Qurandakı bir neçə ayəyə istinad edib. Məsələn, ”Yer üzü sabitdir", “Göydə nə varsa, hamısı üzür” ayələrini misal çəkmək olar. Amma Yer üzünün fırlanması haqda heç nə deyilməyib. Alimlər burdan nəticə çıxarıblar ki, Yer üzü sabitdir və fırlanmır.

Məsələn, Bakıdan təyyarəyə minib Amerikaya gedirsən. Təyyarə havada dayananda, Amerika özü sənin yanına gələcək. Amma Amerika sənin yanına gəlmir. Məcbur olursan ki, Amerikaya 7-8 saat uçasan. Əgər bu fırlanırsa, çıxaq yuxarıda dayanaq, hansı ölkəni istəyiriksə, bir neçə saata özü gələcək. Alimlərin gəldiyi nəticə budur".

**Astroloq Firudin Qurbansoy “Yeni Müsavat”a açıqlamasında bu iddianı savadsızlıq adlandırdı. Onun dediyinə görə, bu fikri müdafiə edənlər savadsız olduqları üçün camaatı da savadsızlar təbəqəsinə aid edirlər:** “Yer kürəsi fırlanır, hər şey də hərəkətdədir. Elmdən xəbəri olmayan cahillərin dediklərini təkzib etməyə vaxt sərf etməyi düzgün hesab etmirəm. Bu fikri yayanlar nə astronomiya, nə də fizikadan xəbərdardır”.



Hacı Şahin Həsənli



Hacı Qamət Süleymanov

**İlahiyyatçı Hacı Şahin Həsənli isə publika.az-a açıqlamasında Yerin hərəkətdə olmasını inkar etməyi gülünc hərəkət adlandırıb:** “Yerin hərəkətdə olması haqqında Qurani-Kərimdə işarələr var. Elmin qəti şəkildə təsdiq etdiyi hər hansı elmi qaydanı din heç vaxt inkar edə bilməz. Yerin öz oxu ətrafında fırlanması artıq qəti şəkildə sübut olunub və onu inkar eləmək gülünc məsələdir. Belə sadə elmi məsələni din adından inkar eləmək yolverilməzdir".

**Dosye:** Yerin öz oxu ətrafında fırlanması ideyasını ilk dəfə məşhur fransız alimi Füko 1851-ci ildə təcrübi yolla sübuta yetirib. Alimlər müəyyən ediblər ki, bütün fırlanan cisimlər kimi, Yer də fırlanma oxuna malikdir. Yerin paylanması ilə əlaqədar olaraq onun səthindəki bürün nöqtələr şimal və cənub qütblərini çıxmaq şərti ilə dairə cızırlar. Fırlanma sürəti ekvator boyunda yüksək həddə çatır: saniyədə 464 m; 500 şimal və cənub enliyində isə saniyədə 250 m; qütblərdə 0 m. Qütblərdə çevrə cızmayan bu hərəkətsiz nöqtələri birləşdirən xəttə yerin xəyali oxu deyilir. Yer kürə formasında olduğu üçün Günəş şüaları onun bütün səthini eyni vaxtda işıqlandıra bilmir. Odur ki, Günəşə doğru çevrilmiş hissədə gündüz, digər tərəfdə gecə olur və yerin fırlanması ilə əlaqədar bu növbələşmə ardıcıl surətdə davam edərək gecə ilə gündüzü əmələ gətirir. Yer kürəsi öz oxu ətrafında hərəkətini 24 saata (23 saat, 56 dəq. 4 saniyə) başa vurur.

Ərəb imamın dediklərini Ptolomey İslamdan əvvəlki xristian dünyasında da iddia edib. Elmi mənbələrə inansaq, o, dini və elmi ictimaiyyət içində batil və əsassız bir fikir və əqidəni irəli sürürdü və onu əsaslandırmaq üçün xristianlığın dini inanclarından da istifadə edirdi. İddia edirdi ki, Yer kürəsi və bütün ulduzlar sabit, hərəkətsizdirlər və yerdəyişmədən məhrumdurlar. Təəssüf ki, bu fikir kilsə və onun başında dayanan Papa tərəfindən də qəbul edilmişdi: beləliklə, Yer kürəsinin sabit, hərəkətsiz olması fikri xristianların əqidələrində və dini inancların-da özünə yer tutdu və bu nəzəriyyə hamıya, hətta alimlərə və astronomiya elmi mütəxəssislərinə də qəbul etdirildi.

Ancaq iki alim kilsənin bu əqidəsinə qarşı çıxdı: Cordano Bruno kilsənin bu fikrinə müxalif olduğu üçün yandırıldı. Qalileo Qaliley də kilsənin çox sərt və qəzəbli münasibətilə qarşılaşdı və Yer kürəsinin, ulduzların hərəkətdə olduğunu və günəşin öz oxu ətrafında fırlandığını iddia etməsi üzündən kilsə tərəfindən rəsmi surətdə mühakimə olundu. Qalileyin ciddi müqaviməti ilə qarşılaşdıqda onu edama məhkum etdilər. Alim axırda çarəsiz qalıb yazılı şəkildə tövbə etdi və özünün Yer kürəsinin hərəkət etdiyi və Günəşin öz oxu ətrafında fırlandığı haqqındakı fikirlərindən əl çəkdi.

**Nəql edirlər ki, Qaliley kilsə məhkəməsinin salonundan çıxarkən, ayağını yerə vuraraq astaca deyib:** “Ey Yer kürəsi, sən şahid ol ki, hərəkət edirsən və gələcək nəsillər buna şahid duracaqlar. Amma nə edim ki, kilsə və onun başında dayananlar sənin hərəkət etdiyini sübuta yetirməyə mənə icazə vermədilər”.

❑ **Sevinc TELMANQIZI**

# Azərbaycan bankları da haker hücumuna məruz qala bilər

## “Banklar maksimum təhlükəsizlik sisteminə malik olan proqramlar tətbiq etməlidir”

**Rusiyanın antivirus proqram təminatının aparıcı istehsalçılarından olan “Kasperski Laboratoriyası” şirkəti hakerlərin Rusiya ərazisində yerləşən banklardan 300 milyon dollar oğurlamasını elan edib.**

“The New York Times” nəşrinin yazdığına görə, “Kasperski Laboratoriyası”nın mütəxəssisləri qeyd olunan məbləğin daha çox olduğunu istisna etmir. Şirkətin Şimali Amerika bölməsinin rəhbəri Kris Doqqet qeyd edib ki, fırıldaqçılar əməllərinin gizlədilməsi üçün təkmilləşdirilmiş taktikalardan istifadə etməklə, qanunsuz fəaliyyətlərini 2 il davam etdirə biliblər. Nəşrin məlumatına görə, Rusiya, Çin və bir sıra Avropa dövlətlərindən olan hakerlər ziyanverici proqram təminatını 30 ölkənin ərazisində yerləşən bankların kompüter sisteminə yeridə bilib. Beləliklə, kiber-cinayətkarlar maliyyə qurumlarının insayder məlumat bazasına yol taparaq böyük məbləğdə pul vəsaitlərini köçürməyə müvəffəq olublar. “Kasperksy Laboratioriyası” şirkətinin məlumatına görə, kibercinayətkarlar “Carbanak” adlı haker əməliyyatı ilə bunu həyata keçiriblər və dünyanın 100-dən çox maliyyə təşkilatından 1 milyard dollardan artıq pul vəsaiti oğurlayıblar. Məsələ ilə bağlı “Evropol” və “İnterpol” müştərək təhqiqat aparıb. Mütəxəssislər hesab edir ki, bu cinayət əməlinin arxasında Rusiyadan, Ukraynadan, digər Avropa ölkələrindən və Çindən olan kiber-cinayətkarlar dayanır. Hər dəfə dünyanın bank şəbəkəsinə hücum zamanı ən çox oğurlanan pulun miqdarı 10 milyon dollar olub. Pul banklardan onlayn ödəniş sistem vasitəsilə çıxarılıb. Hakerlər Çində və Amerika banklarında özlərinə hesab açıblar. Lakin ekspertlər cinayətkarların digər ölkələrin banklarında da hesablarının olduğunu istisna etmirlər...



**Maraqlıdır, Azərbaycan banklarına da haker hücumu ola bilərmi? Bizim banklarda bunun qarşısını alacaq tədbirlər görülübmü?**

**İqtisadçı ekspert Samir Əliyev haker hücumunun hər an ola biləcəyini dedi:** “Haker hücumundan heç kim sığortalanmayıb. Nəinki banklar, hətta dövlət qurumlarının özləri haker hücumuna məruz qalırlar. Hansı ki, dövlət qurumlarının təhlükəsizlik sistemi daha üstündür. Hətta dünyanın aparıcı ölkələrində - Amerikada, Avropanın özündə də banklar haker hücumuna məruz qalır. İnformasiya texnologiyalarının inkişaf etməsinin üstünlükləri ilə yanaşı riskləri də var. Tutaq ki, maaş alanda nağd pul götürürsünüz. Onu cibinizdən kimsə oğurlamasa, pul sizdə qalacaq. Amma elektron qaydada, maaş kartları ilə alanda müəyyən risk yaranır. Çox adam maaşlarını kartdan tamamilə çəkmir, üstündə pul gəzdirməkdənsə, kart gəzdirməyi üstün tuturlar. Bununsa riski ondan ibarətdir ki, kimsə sizin kodunuzu götürə bilər və ya haker girib kartsız da sizin pulunuzu götürə bilər. Belə hallara tez-tez rast gəlinir. Məlum olur ki, hansısa başqa ölkədən sizin kartınızdan pul çıxarılıb. Azərbaycan banklarına da haker hücumu riski var. Burada bankların üzərinə məsuliyyət düşür. Bu baxımdan ki, banklar maksimum təhlükəsizlik sisteminə malik olan proqramlar tətbiq etməlidir. Çünki burada vətəndaşın vəsaitinin itirilməsindən söhbət gedir. Bu sahədə də bizdə banklar işləyir. Onu deyim ki, bizdə hələ ki hesablardan böyük məbləğdə pulların çıxarılması hallarına rast gəlinməyib. Bu kimi hallar baş veribsə belə, bu, ictimaiyyətə açıqlanmayıb. Amma ümumən götürdükdə heç kim haker hücumundan sığortalanmayıb”.

Qeyd edək ki, ümumilikdə 30 min şirkət hər gün haker hücumuna məruz qalır. “PwC” şirkətinin tədqiqatında bildirilir ki, hücumlar nəticəsində kiçik və orta şirkətlərə 65-115 min funt-sterlinq (99-175 min dollar) dəyərində ziyan gəlir. Bəzi şirkətlər ildə altı dəfə kibercinayətkarların qurbanı olur. Böyük müəssisələr itkilərin öhdəsindən tez gəldiyi halda, kiçik və orta şirkətlər üçün bu məbləğdə xərclər fəaliyyətin dayanmasına səbəb ola bilər. Bundan əlavə, hər gün təxminən 250 min yeni virus yaradılır, hücumlar isə getdikcə daha da ciddiləşir. Ekspertlərin fikrincə, şirkətlər şəbəkədə cinayətkar fəaliyyət nəticəsində ciddi ziyana uğramamaq üçün etibarlı mühafizə sistemi qurmalıdırlar.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 37 (6065) 18 fevral 2015

# Döyüş multfilmlərinə baxanlar... qorxaq olur

Son illər sayı sürətlə artan və balaca uşaqları da öz maraq dairəsinə alan döyüş cizgi filmləri dünyada həyəcan yaradır. Belə ki, isveç alimləri bu filmlərin uşaq psixologiyasına ciddi zərbə vurduğu qənaətindədir. Onların fikrincə, bu filmlərin təsiri altında böyüyən uşaqlarda aqressiya ilə yanaşı, qorxaqlıq da olur. Daim bu sayaq cizgi filmlərinə baxan 50 uşaq üzərində keçirilən müşahidədən sonra məlum olub ki, onlar hətta valideynlərinin də cizgi filmlərdəki qorxulu qəhrəmanlar kimi onları döyəcəyindən ehtiyatlanırlar.





## Kompüter oyunları yaddaşı gücləndirmir

Kompüter oyunlarının insan beyninə müsbət təsir etməsi ilə bağlı iddia öz təsdiqini tapmayıb. Berlin və Stanford alimləri kompüter oyunları hazırlayan firmaların reklamlarında tez-tez istifadə etdikləri və müştərilərə təsir edən "mütəxəssislər tərəfindən hazırlanıb" cümləsinin həqiqəti əks etdirmədiyini dəqiqləşdiriblər. Müxtəlif ölkələrdən 70-dən artıq nevropotoloq və psixoloq aydınlaşdırıb ki, beyin gimnastikasını təmin edən kompüter oyunları yaşlılıqla bağlı zehni qabiliyyət faizini aşağı salmır, amma heç yuxarı da qaldırmır. Oyunlar insan yaddaşını əsla gücləndirmir. Max Planck İnstitutundan Ulman Lindenberger fiziki olaraq aktiv olan, sosial həyata qatılan və zehni olaraq da oyaq qalan insanların zehni baxımdan daha sağlam yaşlanma şansının olduğunu deyir. Beyin və davranışların irəliləyən yaşlarda idmana, gimnastikaya bağlılığın mümkünlüyü də elmi araşdırmaların nəticələri sırasındadır.

# Toyunda gözəl görünmək istədi, həyatı məhv oldu

**Kristina Mayls adlı Britaniya vətəndaşı toyunda gözəl görünmək üçün arıqlamaq qərarına gəlib. ANSPRESS-in məlumatına görə, nəticədə 23 yaşlı qadın pəhriz saxlayaraq 19 kiloqramdan artıq çəkini itirib və bədəni 10 ölçü kiçilib. Lakin əsl problem bundan sonra başlayıb. Belə ki, qadın çox çəki itirdiyinə görə bədəninin dərisi sallanıb. Bu səbəbdən gənc qadın yaşlı qadına bənzəyib.**

Səhiyyə də qadının dərdinə çarə olmayıb. Belə ki, yerli səhiyyə təşkilatı əməliyyat yolu ilə artıq dərini götürməyə razı olmayıb. Razı olsa belə, qadının özünün bu əməliyyata pulu olmadığı üçün o, çarəsiz qalıb. "Tək istədiyim toy günümdə arıq və gözəl gəlin olmaq idi. Ancaq bu pəhriz mənim həyatımı və toyumu bərbad etdi", - deyən qadın tək çıxış yolunun yenidən kökəlmək olduğunu bildirib. Arıqlayandan sonra intim həyatı belə məhv olan Kristinanın ilk həyat yoldaşı onu tərk edib.

Ayrılandan sonra yenidən nisbətən kökələn qadın təkrar ailə qurub. İndi cütlüyün 2 övladı var.





## Bu peşənin sahibləri tez boşanır...

**Diş həkimləri daha çox başqa peşənin sahibləri ilə evlənirlər. Ən çox boşanan peşə sahibləri isə dekoratorlardır. Bu maraqlı faktları amerikalı sosioloqlar üzə çıxarıblar. 2010-cu ildə ABŞ-da dantistlərin 81%-i evləniblər və ya ərə gediblər. Bundan başqa, baş direktor vəzifələrində çalışan adamlar da tənha yaşaya bilmirlər. İstehsalat sahəsində çalışanlar, terapevtlər, ortopedlər, okulistlər və zəhmət adamları da evlənməyi arzu edirlər.**

Ancaq bəzi peşə sahibləri var ki, onlar tənhalığa məhkumdurlar. Bunlara kinomexaniklər şamil edilir. Sosioloqlar ən çox boşanan peşə sahibləri haqda da söz açıblar. Sən demə, ən çox boşanan adamlar dekoratorlar, qazma qurğularının operatorları, tibb bacıları, sosial işçilər, malaçılar və hərbçilərdir. Onların nikahları uzun sürmür.




QOÇ - Ulduzlar saat 12-yə qədər ayıq-sayıqlığınızı artırmağınızı məsləhət görür. Ələlxüsus da fəaliyyət zəminində baş verən bütün proseslərdə neytrallıq nümayiş etdirməlisiniz. Sonrakı saatlarda isə maraqlı hadisələrlə rastlaşacaqsınız.

BUĞA - İstər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə ümumi axar ürəyinizcə olacaq. Başlıca probleminiz olan maliyyə çətinlikləri isə qismən də olsa, qaydasına düşəcək.

ƏKİZLƏR - Günboyu qazanc əldə etmək üçün yaxşı imkanlarınız olacaq. Bu səbəbdən nahara qədər yarımçıq işlərinizi yekunlaşdırmağa çalışın. Nəzərə alın ki, bu ərəfə daxili tərəddüdlərinizi kifayət qədər səngidəcək.

XƏRÇƏNG - Saat 10-12 arası ətrafınızda, həmçinin daxilinizdə ümumi bir gərginlik hökm sürəcək. Bu isə ümumi ovqatınızı aşağı sala bilər. Yaxşı olar ki, həmin müddəti evdə keçirəsiniz. Sonrakı saatlar çox düşərlidir.

ŞİR - Bu təqvimi romantik tərzdə keçirmək istəyirsinizsə, aldığınız dəvətlərə "yox" deməyin. Çünki evdə qalmaq sizin üçün darıxdırıcı keçə bilər. Yeni işlərlə bağlı müəyyən səfərlər etmək olar.

QIZ - Perspektivlərinizin reallaşması üçün bir qədər mürəkkəb gündür. Hətta vəzifə pilləsində müəyyən uğursuzluq ehtimalınız da var. Odur ki, hər bir situasiyaya təmkinlə yanaşmağa çalışmalısınız.

TƏRƏZİ - İxtiyarınızda olan gün sizin üçün çox sakit keçəcək. Amma kiməsə borc vermək, ümumiyyətlə riskli sövdələşmələrə getmək uğurlu deyil. Bu gün sənədləşdirmə işlərinizi də qaydasına salın.

ƏQRƏB - Ümumi məziyyətlərinə görə düşərli gün hesab etmək olar. Amma nəzərdə tutduğunuz ideyaları həyata keçirmək üçün mütləq risk etməlisiniz. Onsuz da əksər işləriniz risklər hesabına reallaşır.

OXATAN - Qarşınızda uğurlu bir gün durur. Bu baxımdan paralel olaraq bir neçə işdə fəaliyyət göstərə bilərsiniz. Hadisələrin müsbət inkişafı daha şanslı olmağınıza şərait yaradacaq.

OĞLAQ - Ümumi ab-hava əsəblərinizə mənfi təsir göstərsə də, bu, qarşınıza qoyduğunuz məqsədlərə yetişməkdə sizə mane olmayacaq. Hərdəmxəyallıq, acıdillilik etməyin. Yeni işlə bağlı uzaq dəvətlərə aludə olmayın.

SUTÖKƏN - Astroloji göstəricilər daha çox şəxsi büdcənizin artacağından xəbər verir. Hətta bunun naminə digər məsələləri ikinci plana da sala bilərsiniz. Çünki ulduzlar gələn həftəyə imkanlı şəkildə qədəm qoyacağınızı bildirir.

BALIQLAR - Kosmik ahəngə uyğunlaşmağı bacarsanız, qayğılarınız da azalacaq. Qlobal problemlərinizin həll olunması üçün canfəşanlığınızı artırmalısınız. Bu addımınızı dəstəkləyən Göy qübbəsi bir çox məsələlərdə sizə yardımçı olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 5 dollar verib bir saat yatırlar



Yaponiyada yorğun və yuxu həsrətində olan şəxslərin yatması üçün yuxu otaqları istifadəyə verilib. Hotellərdən fərqli olaraq, insanlar bu otaqlarda bir və ya bir neçə saat qalaraq həmin müddətin pulunu ödəyirlər. Yuxu otaqlarına müraciət edənlərin böyük əksəriyyətini evində azyaşlı uşağı olan şəxslər təşkil edir. Onlar gecə saatlarında yuxuya həsrət qaldıqları və ofisdə də yata bilmədikləri üçün sözügedən xidmətdən maksimum istifadə edirlər. Bir saatlıq yuxu otağının məbləği 5 dollardır. Otaqlarda həzin musiqi, rahat atmosfer var. Hətta orada müştərilər bəlli saatdan sonra onları oyatmaq üçün xidmət sahibinə müraciət də edirlər. Bunun üçün əlavə 1 dollar məbləğində vəsait ödəmək lazımdır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.250